AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

13 yanvar 2017-ci il № 1-4 (9095) Qiyməti 50 qəpik


## BU SAYIMIZDA

### GƏMİÇİLİK GƏMİLƏRİN OPERATİV TƏMİR OLUNMASI ÜÇÜN BAKI LİMANINA ÜZƏN EMALATXANA GÖNDƏRƏCƏK



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gəmilərin operativ təmir olunması üçün üzən emalatxana göndərəcək.***

Səh. 2

### İLLƏR BİZİ YAŞADIR, BİZ İLLƏRİ

**PREZİDENT İLHAM ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU MÜSTƏQİL AZƏRBAYCAN, VARLI AZƏRBAYCAN, MƏĞRUR AZƏRBAYCAN VƏ DİNC AZƏRBAYCANDIR**



***Ömrümüzdən bir il də keçdi, daha bir ilə əlvida dedik. Yeni ilin ilk günlərində ixtiyarsız arxaya baxır, yaddaşımızı vərəqləyir, tarixə çevrilən ilin əlamətdar hadisələrini yada salırıq. Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan edilən 2016-cı ildə də üzümüzdə təbəssüm, gözümüzdə sevinclə müşayət olunan əlamətdar hadisələr, aylara, illərə dəyən xoş günlərimiz az olmadı.***

Səh. 3

### CEYHAN LİMANINDAN 320 MİLYON TONADƏK AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARINA ÇIXARILIB

***2016-cı ilin dekabr ayı ərzində 1 milyon 887 min 729 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 1 milyon 374 min 823 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib.

Səh. 4

### "XANKƏNDİ" XƏZƏR HÖVZƏSİNDƏ ANALOQU OLMAYAN GƏMİDİR

**Bu yeni gəmi "Cənub Qaz Dəhlizi"nin reallaşmasına sanballı töhfə verəcək**




***2016-cı ilin yaddaqalan hadisələrindən biri də may ayında "Xankəndi" sualtı tikinti gəmisinin Bakı Gəmiqayırma Zavodunun yanalma körpüsündən suya endirilməsi oldu. "Xankəndi" xüsusi olaraq "Şahdəniz-2" layihəsinin sualtı konstruksiyalarını quraşdırmaq üçün layihələndirilib və inşa edilib.***

Səh. 5

### 2017-Cİ İL DÜNYADA "BEYNƏLXALQ DAVAMLI TURİZM İLİ" KİMİ QEYD EDİLƏCƏK

***BMT Baş Məclisinin 70-ci sessiyası 2017-ci ili dünyada "Beynəlxalq davamlı turizm ili" elan edib.***

Dünya Turizm Təşkilatının rəsmi saytının verdiyi xəbərə görə, "Beynəlxalq davamlı turizm ili"nin rəsmi açılışı yanvarın 18-də İspaniyanın Madrid şəhərində olacaq.

Səh. 6

### ÜÇ QADIN GÜLƏŞÇİMİZ BEYNƏLXALQ REYTİNQ CƏDVƏLİNDƏ İLK ONLUQDA QƏRARLAŞIB




**Dünya Güləş Birliyi ötən ilin yekunlarına əsasən, 2017-ci ilin ilk reytinq siyahısını açıqlayıb.**

Qadın pəhləvanların reytinq sıralamasında 7 güləşçimizin adı var. Onlardan 3-ü ilk onluğa daxildir.

Səh. 8



…Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirmişdir, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır. Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir. Bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur.

2016-cı ildə ölkə qarşısında duran demək olar ki, bütün əsas vəzifələr təmin edildi. Bildiyiniz kimi, Azərbaycan neftlə zəngin olan digər ölkələr kimi, neftin qiymətinin aşağı düşməsindən əziyyət çəkirdi. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq görərik ki, Azərbaycan o ölkələrdəndir ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişdir. Neftlə zəngin olan bir neçə başqa ölkə var ki, bizim kimi bu vəziyyətdən uğurla çıxa bilmişdir. Neftin qiyməti isə 3-4 dəfə aşağı düşmüşdür. Bu, o deməkdir ki, əsas gəlir mənbəyimiz olan neft bizə 3-4 dəfə az gəlir gətirmişdir. Biz əlbəttə ki, bu böhranlı vəziyyətdən çıxış yolunu tapmalı idik və hesab edirəm ki, tapmışıq. Bütün çətinliklərə, itkilərə baxmayaraq, biz iqtisadi sabitliyimizi qoruya bildik, bu ağır vəziyyətdən şərəflə çıxa bildik. 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılmışdır. Bir daha qeyd etmək istəyirəm, hər bir ölkənin inkişafı üçün əsas şərt təhlükəsizlikdir, sabitlikdir, vətəndaş həmrəyliyidir. Bu da bizdə var. Təhlükəsizlik qorunur, bir daha demək istəyirəm ki, xalqın iradəsinə əsaslanan sabitlik, vətəndaş birliyi və həmrəyliyi 2016-cı ildə daha da artmışdır. Bütün Azərbaycan xalqı vahid amal uğrunda birləşib ki, ölkəmizi daha da inkişaf etdirək və müstəqilliyimizi daha da möhkəmləndirək.

2016-cı ildə biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik və bu gözəl bayramı yaxşı nəticələrlə, uğurlarla qarşılamışıq.

İqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılmışdır. 2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, mənim tərəfimdən imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək. Qəbul edilmiş qərarlar artıq öz nəticəsini verməkdədir. Əminəm ki, bu nəticələr bu il və bundan sonrakı illərdə daha da qabarıq şəkildə özünü göstərəcək.

Ümumi daxili məhsul aşağı düşsə də, - bunun da əsas səbəbi neftin qiymətinin 3-4 dəfə aşağı düşməsidir və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalmasıdır, - digər önəmli göstəricilər bizi sevindirir. Xüsusilə, ölkəmizdə qeyri-neft sənaye istehsalı keçən il 5 faiz artmışdır. Bu, o deməkdir ki, bizim uzun illər ərzində apardığımız siyasət öz nəticəsini göstərir. Sənayeləşmə, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, bax, bu, gözəl nəticəni təmin edibdir. Böhranlı ildə qeyri-neft sənayemizin 5 faiz artması, hesab edirəm ki, çox böyük göstəricidir.

…Baxmayaraq ki, gəlirlərimiz 3-4 dəfə aşağı düşüb, Azərbaycanda yaradılmış gözəl sərmayə iqlimi hesabına biz ölkəmizə 8 milyard dollar xarici investisiya cəlb edə bilmişik. Bu da çox gözəl göstəricidir. Çünki bu gün bütün dünyada iqtisadi böhran yaşanır, maliyyə çətinlikləri müşahidə olunur və belə vəziyyətdə xaricdən investisiya gətirmək çox çətin məsələdir. Biz bunu təmin etmişik və ölkə iqtisadiyyatına 8 milyard dollar xarici sərmayə qoyulmuşdur. Daxili sərmayə isə 3,7 milyard dollar olmuşdur. Əvvəlki illərlə müqayisədə bu, daha aşağı rəqəmdir. Ancaq bu, başadüşüləndir, bunun səbəbi də bəllidir. Beləliklə, ölkə iqtisadiyyatına keçən il 11 milyard 700 milyon dollar sərmayə qoyulmuşdur. Bir daha demək istəyirəm ki, bu, çox gözəl göstəricidir. Bu göstəricinin mütləq rəqəmləri də çox böyükdür. Əgər bunu adambaşına hesablasaq görərik ki, biz bəlkə də dünya miqyasında ən qabaqcıl yerlərdən birini tuturuq.

2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarımızı, xüsusilə Neft Fondunun vəsaitini qorumaq idi. Biz buna nail ola bilmişik. Mən indi dünyada gedən proseslərə xalqımızın diqqətini bir daha yönəltmək istəyirəm. Demək olar ki, neftlə zəngin olan bütün ölkələrin valyuta gəlirləri böyük dərəcədə aşağı düşüb. Neft fondları, suveren fondlar, digər fondlar, pensiya fondları, bunların müxtəlif adları var. Bu fondlarda yığılan vəsait kəskin şəkildə aşağı düşmüşdür. Azərbaycanda isə biz demək olar ki, Neft Fondunun gəlirlərini qoruya bildik. Neft Fondunun gəlirləri cəmi 4 faiz aşağı düşmüşdür. Çünki biz valyuta ehtiyatlarımızın şaxələndirilməsi istiqamətində vaxtilə addımlar atmışıq. Bizim valyutamız həm dollarda, həm avroda, həm Britaniya funtunda saxlanılır. Dolların möhkəmlənməsi, avronun, funtun aşağı düşməsi nəticəsində bax, dollar ekvivalentində bizim Neft Fondumuzun valyuta ehtiyatları 4 faiz aşağı düşmüşdür. Əgər bu məzənnə fərqi olmasaydı, biz o az səviyyəli tənəzzülə də uğramazdıq. Yəni, bu gün Azərbaycan Dövlət Neft Fondunda 33 milyard dollar vəsait var. Biz bunu qorumuşuq, qoruyacağıq və əminəm ki, bu il bunu daha da artıracağıq.

Əlbəttə, böhrandan çıxmaq üçün ən asan yol valyuta ehtiyatlarını xərcləməkdir və biz bunu bəzi yerlərdə görürük. Ancaq biz gələcəyi düşünürük. Biz uzunmüddətli strategiyamızı qururuq. Biz illər boyu valyuta ehtiyatlarımızı qorumuşuq, yığmışıq, ölkə üçün lazım olan infrastruktur, sosial layihələrə yönəltmişik və bu gün də qoruyuruq, artırırıq və artırmalıyıq.

Bizim gördüyümüz işlər dünyanın aparıcı, mötəbər beynəlxalq iqtisadi və maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu da çox vacibdir. Çünki biri var bunu biz özümüz deyirik, biri də var ki, bunu beynəlxalq qurumlar qeyd edir. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 65-ci yerdədir. Bu, yaxşı göstəricidir. Əlbəttə, biz çalışmalıyıq ki, daha yüksək pilləyə çıxaq. Ancaq indiki şəraitdə dediyim bütün o amilləri nəzərə alaraq hesab edirəm ki, bu, kifayət qədər yüksək göstəricidir. Dünyanın aparıcı iqtisadi beynəlxalq forumunun - Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 3 pillə irəliləyərək 40-cı pillədən 37-ci pilləyə qalxmışdır. Bu da hesab edirəm ki, rekord göstəricidir. Biz MDB məkanında yenə də birinciyik və bu birinciliyi saxlamışıq. Bax, budur, beynəlxalq aparıcı iqtisadi qurumların hesabatları.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Yanvarın 10-da Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)*

## 2017-Cİ İL AZƏRBAYCANDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLİB

**Prezident İlham Əliyev 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olub. O, İslam dininin yayılmasında və eyni zamanda, Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynayıb. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaradıb. 743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir.

Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçib. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin İslam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunub, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilib.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurub, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış edib.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verib. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapıb. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Sərəncamın imzalanmasında məqsəd İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etməkdir.

Sərəncamda Nazirlər Kabinetinə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Prezidentə təqdim etmək tapşırılır.

## 20 YANVAR FACİƏSİNİN 27-Cİ İLDÖNÜMÜNÜN KEÇİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR PLANI TƏSDİQ EDİLİB




**Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.**

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili,




saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

DƏNİZ

13 yanvar 2017-ci il № 1-4 (9095)



## “QURBAN ABASOV” KRAN GƏMİSİNİN XƏZƏRİN RUSİYAYA AİD SULARINDA İSTİSMAR OLUNMASI NƏZƏRDƏ TUTULUR

**Rusiya Federasiyasının “Marine Offshore Contractor” MMC şirkəti “Qurban Abasov” kran gəmisini “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-dən icarəyə götürmək istəyir. Bunun üçün Gəmiçiliyin rəhbərliyi ilə danışıqlara başlanılıb.**

“AXDG” QSC-nin sədri Rauf Vəliyevlə görüşdə qonaqlar gəmiyə ətraflı baxış keçirdiklərini və onun texniki göstəricilərindən tam razı qaldıqlarını bildiriblər. Sonuncu təmir zamanı tamamilə modernləşdirilən “Qurban Abasov” kran gəmisinin Xəzərin Rusiyaya aid sularında istismar olunması nəzərdə tutulur.

Söhbət zamanı “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev indiyədək əməkdaşlıq etdikləri digər şirkətlər kimi, “Marine Offshore Contractor” MMC-nin də etibarlı tərəfdaş olacağına əminliyini ifadə edib. Görüşdə eyni zamanda gələcəkdə birgə layihələr çərçivəsində əməkdaşlıq perspektivləri də müzakirə olunub.

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 534** **Bakı şəhəri, 30 dekabr 2016-cı il**

## İRİ DÖVLƏT ŞİRKƏTLƏRİNİN GƏLİRLƏR VƏ XƏRCLƏR SMETALARI HAQQINDA

İri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində fiskal dayanıqlılığın təmin olunması, gəlirlərin və xərclərin proqnozlaşdırılmasına və icrasına nəzarətin daha da gücləndirilməsi, habelə bu sahədə idarəetmənin təkmilləşdirilməsi və şəffaflığın artırılması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydası” təsdiq edilsin (2 nömrəli əlavə).

3. “İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinq aparılması Qaydası” təsdiq edilsin (3 nömrəli əlavə).

4. Bu qərarın 1-ci hissəsi ilə təsdiq edilən Siyahıda sadalanan iri dövlət şirkətlərinin gəlirlər və xərclər smetalarına baxılma və həmin smetaların təsdiq edilməsi üzrə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Yaqub Eyyubov – Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

Şahin Mustafayev – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Fazil Məmmədov – Azərbaycan Respublikasının vergilər naziri

Elman Rüstəmov – Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Rüfət Aslanlı – Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri.

5. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədi ilə Komissiyanın Katibliyi yaradılsın və Katibliyin funksiyalarının həyata keçirilməsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə həvalə edilsin.



6. Müəyyən edilsin ki:

6.1. iri dövlət şirkətləri növbəti ilin gəlirlər və xərclər smetalarının ilkin layihələrini hər il iyulun 1-dək Komissiyanın Katibliyinə təqdim edir;

6.2. Komissiya təqdim olunmuş layihələrin müzakirəsini və qiymətləndirilməsini həyata keçirir və müvafiq düzəlişlərin aparılması zərurəti yarandıqda, həmin layihələri hər il sentyabr ayının 15-dək iri dövlət şirkətlərinə qaytarır;

6.3. iri dövlət şirkətləri, Komissiyanın rəyi nəzərə alınmaqla, gəlir və xərclər smetaları layihəsində düzəlişlər edərək, layihəni sentyabr ayının 25-dək Komissiyanın Katibliyinə təqdim edir;

6.4. Komissiya hər il noyabr ayının 1-dək iri dövlət şirkətlərinin gəlir və xərclər smetalarını təsdiq edir;

6.5. iri dövlət şirkətləri təsdiq olunmuş gəlirlər və xərclər smetalarının rüblük icrası barədə hesabatı hər rübdən sonra 30 gün ərzində, illik icrası barədə hesabatı isə hər il aprel ayının 1-dək Komissiyaya təqdim edir;

6.6. Komissiya altı ay müddətində bu qərarın 6.5-ci bəndinə əsasən təqdim olunmuş gəlir və xərclər smetalarının illik icrası barədə hesabatların təhlilini, qiymətləndirilməsini və monitorinqini aparır, bu barədə arayış hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

6.7. gəlirlər və xərclər smetaları təsdiq edildikdən sonra iri dövlət şirkətlərinin gəlirlər və xərclərində Komissiya ilə razılaşdırılmaqla dəyişikliklər edilə bilər.

7. “İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 iyun tarixli 102 nömrəli qərarı ləğv edilsin.

**Artur RASİ-ZADƏ,**
**Azərbaycan Respublikasının Baş naziri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli qərarı ilə təsdiq edilmişdir.**
**1 nömrəli əlavə**

### Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin siyahısı

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti.
2. “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti.
3. “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti.
4. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti.
5. “Azərsu” Açıq Səhmdar Cəmiyyəti.
6. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti.
7. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti.
8. “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti.
9. “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti.
10. “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti.
11. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan qurumlar (“Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti, “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti və “Bakı Telefon Rabitəsi” İstehsalat Birliyi).

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az saytında tanış ola bilərsiniz.**

## GƏMİÇİLİYİN RƏHBƏRİ AZƏRBAYCAN DƏNİZÇİLİK KOLLECİNDƏ GƏLƏCƏYİN DƏNİZÇİLƏRİ ÜÇÜN YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB







***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kollecində olub.***

Gəmiçiliyin rəhbəri aparılan təmir və bərpa işlərindən sonra kollecdə gələcəyin dənizçiləri üçün yaradılan şəraitlə yaxından tanış olub.

Kollecdə 9 və 11 illik təhsil əsasında dənizçi peşəsinə yiyələnmək mümkündür. Təhsil ocağında eyni zamanda ixtisasartırma kursları da təşkil edilir və kursları uğurla bitirən gənclərə müvafiq sertifikatlar verilir.

Gəmiçiliyin rəhbəri “Gəmi daxiliyanma mühərrikləri, gəmi təmirinin təşkili” fənni üzrə imtahan prosesini də izləyib. Tələbələr imtahanı kənar müdaxilə olmadan - kompüter vasitəsi ilə verirlər. Sədr Rauf Vəliyev kurs iştirakçılarının təhsili ilə də maraqlanıb.

Daha sonra kollecin idman meydançasına baxış keçirilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2016-cı ildən Gəmiçiliyin tabeliyinə verilən bu təhsil ocağı əvvəllər “Dəniz Balıq Sənayesi Kolleci” kimi fəaliyyət göstərib.

## GƏMİÇİLİK GƏMİLƏRİN OPERATİV TƏMİR OLUNMASI ÜÇÜN BAKI LİMANINA ÜZƏN EMALATXANA GÖNDƏRƏCƏK

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gəmilərin operativ təmir olunması üçün üzən emalatxana göndərəcək.***

“Bibiheybət” Gəmi Təmiri Zavodunda Gəmiçiliyə məxsus üzən emalatxananın təmirinə başlanılıb.

Təmir başa çatdıqdan sonra üzən emalatxananın yedək gəmisi ilə Ələtə - yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanına aparılması gözlənilir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin vaxtında daşınması üçün fəaliyyətdə olan bərələrin Ələt limanında operativ təmirinə zərurət yaranıb. Bakı-Tbilisi-Qars dəmir yolu xətti istismara veriləndən sonra “Şərq-Qərb” nəqliyyat dəhlizi üzrə daşınan yüklərin həcmində də artım proqnozlaşdırıldığından Gəmiçiliyin rəhbərliyi üzən emalatxananın təmirinə qərar verib.

Üzən emalatxana Xəzərin ən böyük yükaşırma müəssisəsinə yan alacaq gəmilərə operativ xidmət göstərməyə imkan verəcək. Bununla da gəmilərin səfərlərarası cari təmirində vaxt itkisi aradan qaldırılacaq. Əvvəllər gəmilərin “Bibiheybət” və “Zığ” gəmi təmiri zavodlarında həyata keçirilən cari təmir işləri bundan sonra yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanında gerçəkləşdiriləcək.

Müasir standartlara cavab verəcək üzən emalatxanada gəmilərin təmiri ilə bağlı bütün xidmətlər göstəriləcək. Burada işçi heyətin yaşayışı üçün də zəruri hər şey nəzərə alınıb. Kayutlar, yeməkxana, istirahət otağı ilə yanaşı, üzən qurğuda Gəmiçiliyin internet və lazımı avadanlıqlarla təchiz edilən stasionar ofisi də fəaliyyət göstərəcək. Bu da Gəmiçiliyin əməkdaşlarının Bakı Beynəlxalq Dəniz Ticarət Limanında distant fəaliyyət göstərməsinə və işin səmərəliliyini daha da artırmağa imkan verəcək.

Gəmiçiliyin rəhbəri Rauf Vəliyev 24 saat növbəlilik qrafiki ilə icra edilən təmir prosesi ilə yaxından tanış olub. Bildirilib ki, təmir işləri plana uyğun aparılır. Təmirin yanvarın sonunda başa çatdırılacağı nəzərdə tutulub. Təmirlə bağlı tapşırıqlarını verən sədr daha sonra üzən qurğunun aparılacağı Bakı Beynəlxalq Dəniz Ticarət Limanında olub.

Hazırda emalatxananın yerləşəcəyi ərazidə Gəmiçiliyin sifarişi ilə “Caspian Marine Services” şirkəti dibdərinləşdirmə işləri görür. İşin gedişatı ilə maraqlanan “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev limanın nümayəndələri ilə də görüşüb. Söhbət zamanı gələcəkdə həyata keçiriləcək müştərək layihələr haqqında da fikir mübadiləsi aparılıb.













## XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU ÜZRƏ İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLİB

***Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin hüquqi statusu üzrə ikitərəfli məsləhətləşmələr keçirilib.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun və Rusiya Federasiyası Prezidentinin MDB İştirakçı-Dövlətləri ilə sərhədlərin delimitasiyası və demarkasiyası üzrə xüsusi nümayəndəsi, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri İqor Bratçikovun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.



Görüşdə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya layihəsi üzrə geniş fikir mübadiləsi aparılıb. Xəzəryanı ölkələrin Zirvə toplantısına hazırlıq məqsədilə keçirilməsi nəzərdə tutulan Xəzəryanı ölkələrin Xarici İşlər Nazirlərinin Müşavirəsinə qədər sözügedən Konvensiya layihəsində açıq qalan bütün məsələlər üzrə razılığın əldə olunmasının vacibliyi vurğulanıb. Bu məqsədlə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın işlənib hazırlanması üzrə Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun növbəti görüşünün səmərəli yekunlaşması üçün birgə səylərin artırılmasının zəruriliyi qeyd edilib. Müzakirələr zamanı bütün Xəzəryanı ölkələr tərəfindən qəbul ediləcək Konvensiyanın hər bir sahilyanı dövlətin suveren hüquqlarının təmin olunmasına və onların maraqlarına xidmət etməli olduğuna dair fikir mübadiləsi aparılıb.

Hər iki ölkə arasında mövcud olan mehriban qonşuluq və dostluq münasibətləri ruhunda keçən görüşdə Xəzər dənizi məsələləri üzrə ikitərəfli formatda aparılan məsləhətləşmələrin mövqelərin yaxınlaşdırılmasına və açıq qalan məsələlərin razılaşdırılmasına xidmət etdiyi qeyd olunub.



# İLLƏR BİZİ YAŞADIR, BİZ İLLƏRİ

## PREZİDENT İLHAM ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU MÜSTƏQİL AZƏRBAYCAN, VARLI AZƏRBAYCAN, MƏĞRUR AZƏRBAYCAN VƏ DİNC AZƏRBAYCANDIR

***Ömrümüzdən bir il də keçdi, daha bir ilə əlvida dedik. Yeni ilin ilk günlərində ixtiyarsız arxaya baxır, yaddaşımızı vərəqləyir, tarixə çevrilən ilin əlamətdar hadisələrini yada salırıq. Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən “Multikulturalizm ili” elan edilən 2016-cı ildə də üzümüzdə təbəssüm, gözümüzdə sevinclə müşayət olunan əlamətdar hadisələr, aylara, illərə dəyən xoş günlərimiz az olmadı.***

Hələ ötən il yanvarın 10-da 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev 2016-cı il haqqında demişdi: “Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Bu, asan məsələ deyil. Ümumiyyətlə, keçən il müşahidə olunan mənzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Belə olan halda biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik. Xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılmışdır. Əgər biz vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün iqtisadi inkişafımız o qədər də uğurlu olmazdı. İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Əminəm ki, biz bu il ərzində bu istiqamətdə daha da böyük uğurlara nail olacağıq”.

Bəli, dünyada iqtisadi böhranın davam etməsinə baxmayaraq, yola saldığımız ildə də ölkəmizin inkişafı təmin edildi. Mühüm uğurlara imza atan gənc, müstəqil Azərbaycanın siyasi və beynəlxalq mövqeləri daha da möhkəmləndi. Prezident İlham Əliyevin Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsini təsdiq etməsi də, qeyri-neft sektorunun şaxələndirilməsi də, sənaye parklarının yaradılması da... əhəmiyyətli məsələlərdir. Bundan başqa, Azərbaycan Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı referendumun keçirilməsi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq Trans-Adriatik boru kəməri - TAP-ın təməlinin qoyulmasını da ötən ilin ən yaddaqalan hadisələrindən hesab etmək olar. Keçən il qəbul edilən bir çox qərarların, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış mühüm addımların daha gözəl nəticələrini isə yaxın illərdə görəcəyik. Xüsusən, neftin qiymətinin aşağı düşməsi nəticəsində valyuta gəlirlərimizdəki azalmaların qeyri-neft ixracının inkişafı ilə bərpa ediləcəyinə şübhə yoxdur.

2016-cı ildə də Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdi. Bu sırada Formula-1 Avropa Qran-prisini, 42-ci Ümumdünya Şahmat Olimpiadasını, IV Qlobal Bakı Forumunu, Dünya Xəbər Agentliklərinin V Konqresini və Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının XVI Baş Assambleyasını və digər tədbirləri qeyd etmək olar.

Beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər, xüsusən, maliyyə böhranı və iqtisadi tənəzzül keçən il dünyanın əksər, hətta bəzi güclü iqtisadiyyata malik dövlətlərini belə sosial layihələri arxa plana keçirməyə məcbur etdi. Azərbaycanda isə sosial sahədəki bütün proqramlar əvvəlki qaydada icra edildi.

Daim diqqətdə saxlanılan məsələlərdən biri əhalinin sosial müdafiəsinin lazımi səviyyədə təmin edilməsi idi. 2016-cı ildə əhalinin pul gəlirləri 7 faiz, orta əməkhaqqı isə 9 faiz artdı. Vətəndaşların rifah halını yüksəltmək məqsədilə Prezident İlham Əliyev tərəfindən sosial xarakterli bir sıra fərman və sərəncamlar imzalandı. Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradıldı.

Prezident İlham Əliyevin “Əhalinin özünəməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” 2016-cı il 7 aprel tarixli Sərəncamının icrası istiqamətində məqsədyönlü işlər uğurla davam etdirildi. Rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, kiçik və orta sahibkarlığı dəstəkləməyə yönələn sosialyönlü layihələri reallaşdıracaq “ABAD” (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs yaradıldı.





Devalvasiyanın təsirlərindən əhalinin müdafiəsi məqsədilə tammiqyaslı tədbirlər həyata keçirildi. “Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında” qanun layihəsi qəbul edildi. Bu qanuna görə, 2017-ci ildə Azərbaycanda yaşayış minimumu 155 manat müəyyən edilib ki, bu da 2016-cı illə müqayisədə 13,97 faiz çoxdur. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat nəzərdə tutulub.

Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması əhalinin sosial baxımından aztəminatlı təbəqəsinə dövlətin qayğısını bir daha təsdiq edir. Hazırda sosial təminat sistemi 2,5 milyon adamı və ya respublika əhalisinin 26 faizini təşkil edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 1 milyon 312 min nəfərə əmək pensiyası, 506,1 min nəfərə müxtəlif növ müavinətlər və Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri ödənilir. 2016-cı ildə dövlət hesabına xaricə müalicəyə 128 əlil, o cümlədən 58 uşaq göndərilib, regionlarda 1015 əlilin istirahəti təşkil edilib. Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə Bakıda və regionlarda yaşayış binaları tikilir, onlar minik avtomobili ilə təmin edilirlər.

Sosial təminat sisteminin mühüm bir istiqaməti də aztəminatlı ailələrin yoxsulluğun doğurduğu çətinliklərdən müdafiəsi üçün onların ünvanlı dövlət sosial yardımı proqramı ilə əhatə olunmasıdır. Ölkəmizdə 162 min ailənin 707 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı ilə təmin edilir.

Bütün bunlar göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Sosial sahədə uğurlar, xalqın ildən-ilə yüksələn rifahı dövlətimizin başçısının uzaqgörən siyasətini əyani olaraq bir daha təsdiq edir.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2016-cı ildə keçirilən referendumun nəticələrini xalqın dövlət tərəfindən yürüdülən siyasətə böyük dəstəyi kimi qiymətləndirib və bu dəstək və inama görə Azərbaycan xalqına minnətdarlığını bildirib. “Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun”, - deyə dövlətimizin başçısı vurğulayıb.

2016-cı ildə nəqliyyat təhlükəsizliyi istiqamətində də çox işlər görüldü. “Şərq-Qərb” nəqliyyat dəhlizinin icrası artıq başa çatır və “Şimal-Cənub” nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atıb.

“Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlərin başa çatdırıldığını qeyd edən dövlətimizin başçısı deyib: “Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq çalışacağıq ki, bu iki önəmli magistral tezliklə işə düşsün”.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində Prezident İlham Əliyev 2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində atılmış önəmli addımlardan da bəhs edib.

“Cənub Qaz Dəhlizi” layihəsinin uğurla icra edildiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: “Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası Bakıda keçirilmişdir və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğulamışlar. “Cənub Qaz Dəhlizi” Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihəsidir”.

Prezident İlham Əliyev vurğulayıb ki, “Cənub Qaz Dəhlizi” tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. “Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılmışdır və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilmişdir və beləliklə, “Cənub” Qaz Dəhlizini qidalandıracaq layihələr arasında təkcə “Şahdəniz” layihəsi deyil, eyni zamanda, “Abşeron” qaz yatağı da olacaqdır”, - deyə dövlətimizin başçısı bildirib.

2016-cı ildə ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmləndiyini qeyd edən Prezident İlham Əliyev deyib: “Bizim dostlarımızın sayı artıb, bizi istəməyən qüvvələr, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir”.

Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlərin qəbul edildiyini bildirib. Vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir.

“Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma “Dağlıq Qarabağ” qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir”, - deyə Prezident İlham Əliyev qeyd edib.

Müstəqilliyimizin 25 illiyini qeyd etdiyimiz bayram ilində Azərbaycan Ordusu daha da gücləndi. Tarixi qələbəmiz olan aprel döyüşləri isə Azərbaycan Ordusunun gücünü nümayiş etdirdi. Aprel ayının ilk günlərində erməni silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alan ordumuz düşmənə sarsıdıcı zərbələr vurdu və 1994-cü ildən bu günə qədər ilk dəfə Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğalçılardan azad edilən minlərlə hektar torpağı indi ordumuzun tam nəzarəti altındadır.

“Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha demişdim ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

2016-cı ildə idman sahəsində də möhtəşəm uğurlara imza atıldı. İdmançılarımız mötəbər beynəlxalq turnirlərdə 297-si qızıl, 250-si gümüş, 290-nı isə bürünc olmaqla ümumilikdə 837 medal qazandılar. Əvvəlki illə müqayisədə də medalların sayında artım var. Belə ki, 2015-ci ildə bu rəqəm 823 olub.

Ötən il respublikamızda fəaliyyət göstərən federasiyalarla birlikdə ölkəmizdə 200-dən çox yarış təşkil olundu, Azərbaycan 52 beynəlxalq turnirə yüksək səviyyədə ev sahibliyi etdi.

XXXI Yay Olimpiya Oyunlarına əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə – idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə qatıldıq. Bu, ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çox idi. Triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom üzrə yarışlarda ilk dəfə təmsil olunduq. “Rio-2016”da 18 (1 qızıl, 7 gümüş və 10 bürünc) medal qazandıq. Medalların sayına görə Azərbaycan komandası 14-15-ci yerləri bölüşdü. Bu göstərici üzrə yığma komandamız Avropa ölkələri arasında 7-ci, keçmiş Sovet İttifaqı respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yeri tutdu.

Sentyabrda Rio-de-Janeyroda təşkil olunan XV Yay Paralimpiya Oyunlarında 24 idmançımız cüdo, atletika, pauerliftinq, üzgüçülük, güllə atıcılığı və kamandan oxatma yarışlarında mübarizə apardılar. Komandamız 1 qızıl, 8 gümüş və 2 bürünc olmaqla ümumilikdə 11 medal əldə etdi. Paralimpiya yığmamız medalların ümumi sayına görə iştirakçı ölkələr arasında 33-cü, Avropa ölkələri arasında 16-cı, müsəlman ölkələri sırasında 6-cı, MDB ölkələri arasında isə 3-cü yerdə qərarlaşdı.

Ötən ilin iyununda Azərbaycan növbəti mötəbər yarışa – Formula-1 Avropa Qran-prisinə yüksək səviyyədə ev sahibliyi etdi. Dünyanın ən məşhur Formula-1 pilotlarının ölkəmizdə bir araya gəlməsi Azərbaycanın idman uğurunun növbəti təntənəsi idi.

Formula-1 yarışının ölkəmiz üçün əhəmiyyətini yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev deyib: “Formula-1 yarışının keçirilməsi bir daha ölkəmizin qüdrətini göstərdi. Çünki Formula-1 yarışının keçirilməsi hər bir ölkəyə nəsib olmur, hər bir ölkə bu məsuliyyəti öz üzərinə götürə bilmir və çətinlik çəkir. Ancaq biz bu yarışı da uğurla keçirmişik. Formula-1 yarışının Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada tanıdılması üçün müstəsna əhəmiyyəti vardır. Beş yüz milyon tamaşaçı auditoriyası olan bu yarışa bütün qitələrdə baxmışlar və şəhərimizin gözəlliyini, insanlarımızın qonaqpərvərliyini bütün dünya görübdür. Təsadüfi deyil ki, biz də bunu nəzərdə tuturduq, planlaşdırırdıq ki, bu yarışdan sonra ölkəmizə gələn turistlərin sayı dəfələrlə artacaq və artıb”.

Keçən il Azərbaycanda keçirilən ən mötəbər yarışlardan biri də 42-ci Ümumdünya Şahmat Olimpiadası oldu. Sentyabrın 1-14-də “Baku Crystal Hall”da təşkil olunan olimpiadada 181 kişi və 142 qadın komandası mübarizə apardı. Bu, iştirakçı ölkələrin sayına görə olimpiada tarixində rekord göstərici idi. Azərbaycan Şahmat Olimpiadasında üç qadın və üç kişi komanda ilə təmsil olunurdu.

Gələn il Bakı IV İslam Həmrəyliyi Oyunlarına, Formula-1 Azərbaycan Qran-prisinə, qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsinə ev sahibliyi edəcək. İslam Həmrəyliyi Oyunlarında dörd minədək atlet idmanın 21 növü üzrə yarışlarda mübarizə aparacaq.

Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar, yaradılan infrastruktur və maliyyə potensialı, yeni iqtisadi reallıqlar ölkəmizdə uzun bir dövrü əhatə edən keyfiyyətcə yeni iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasını obyektiv zərurətə çevirib. Prezident İlham Əliyevin sözləri ilə desək: “Biz artıq neftdən sonrakı dövrə qədəm qoymuşuq. Demək olmaz ki, neft və qaz erası bitib. Sadəcə, biz bu faktoru kənara qoymalıyıq və öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki bizdə neft və qaz yoxdur”.

Bu baxımdan “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri” haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı fundamental bir inkişaf proqramı olmaqla ölkəmizin əməli cəhətdən yaxın illərdə davamlı inkişaf modelinə keçid konsepsiyası kimi dəyərləndirilməlidir.

Strateji Yol Xəritəsində bütünlükdə milli iqtisadiyyatın və onun əsas sektorlarının idarə olunması və tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı konkret istiqamətlər müəyyənləşdirilib.

2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş strateji məqsədlərə nail olunması nəticəsində Azərbaycanda 2020-ci ildə real Ümumi Daxili Məhsulun 400 milyon birbaşa və 205 milyon dolayı olmaqla, ümumilikdə 605 milyon manat artacağı və 10 min 900 birbaşa və 8 min dolayı olmaqla, 18 min 900 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Strateji Yol Xəritəsi çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası üçün təxminən 3 milyard 160 milyon manat investisiya vəsaiti tələb olunur. Bu isə müvafiq texniki-iqtisadi əsaslandırmalar aparıldıqdan sonra dövlət-özəl maliyyələşdirmə mənbələri hesabına təmin ediləcək.

Azərbaycan dövləti qarşıya qoyduğu məqsədlərə, qəbul etdiyi bütün proqramların, layihələrin yerinə yetirilməsinə həmişə tam nail olub. Bu baxımdan bu tarixi strateji sənədin də uğurla reallaşacağına heç bir şübhə ola bilməz. Çünki Strateji Yol Xəritəsində reallaşması nəzərdə tutulan tədbirlər, qarşıya qoyulan hədəflər, məqsədlər realdır, ölkəmizin mövcud potensial imkanlarına əsaslanır.

Xalqımız Yeni ilə yeni arzular, ümidlər və daha böyük qələbələr sorağı ilə qədəm qoyub.



Prezident İlham Əliyevi “Zamanı qabaqlayan ağırtəbiətli mükəmməl şəxsiyyət və siyasətçi” kimi xarakterizə edən “Rossiya seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyov deyib: “Hesab edirəm ki, İlham Əliyev üçün ən qiymətli və ən əziz meyar onun ölkəsi üçün qarşıya qoyduğu məqsədlərə çatmaqdır. Bu, müstəqil Azərbaycan, varlı Azərbaycan, məğrur Azərbaycan və dinc Azərbaycandır”.

Hər birimizin ürəyindən xəbər verən bu gözəl sözlərə təkcə bir əlavəmiz var: “Qoy bu müqəddəs yolda 2017-ci ili ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edən dövlətimizin başçısına Tanrı özü yardımçı olsun!”

***Rasif TAHİROV***

REPORTAJ

# UZAQ SAHİLLƏRDƏ: YENİ İLİ DALĞA VƏ KÜLƏKLƏRLƏ QARŞILAYANLAR

***- ...Bəs bayram günü ailənin yanında olmayacaqsan?! – Həyat yoldaşımın ilk reaksiyası bu oldu və ardınca mənə emosional təzyiqi gücləndirmək üçün əlavə etdi: - Axı Bum-Bumun birinci bayramıdır...***

Əlbəttə, bayram axşamı evdə, ailənin yanında olmaq gözəldir. Amma həmin axşamı, eləcə də yüzlərlə başqa axşamları ailəsindən uzaqda keçirməyə məcbur qalan insanlar da var axı. Sadəcə uzaqda qalan yox, ailəsinə zəng etməyə, övladının səsini eşitməyə belə imkanı olmayan insanlar var. Niyə? Çünki açıq dənizdə heç bir telefon işləmir. Yalnız peyk rabitəsi istisnadır ki, onunla da evə zəng vura bilməzsən.

Kapitanla müsahibədən:

- Hər dəfə evdən çıxanda iki yaşlı qızım gəlib məni qucaqlayır, başını sinəmə söykəyib deyir ki, "Ata mənimdir. Heç kimə vermərém. Ata, getmə!" Bilmirəm onun başını nə ilə, necə qatım. Biz burada özümüzə təsəlli vermək üçün bir-birimizə deyirik ki, ailəmiz üçün əziyyət çəkirik. Amma əslində elə deyil. Əslində ailəmiz bizim üçün əziyyət çəkir.

Cəlal Orucov 29 yaşında ikən Azərbaycanın ən gənc kapitanlarından biri olub. İndi 35 yaşı var, "Balakən" gəmi-bərəsinin kapitanıdır. Özü gəmiçi ailəsində böyüsə də, valideynləri onun diş həkimi olmasını istəyirlərmiş. Amma o, uşaqlıqdan kapitan olmağı arzulayıb və arzusuna da çatıb. İndi demək olar ki, bütün həyatı dənizdə keçir.

"Balakən" bərəsi Ələt və Aktau limanları arasında vaqonları daşımaqla məşğuldur, nəhəng bir tennis topu kimi Ələtə dəyib Aktauya, Aktauya dəyib, Ələtə qayıdır. Dayanmaq yoxdur. Dənizi köndələn kəsib keçmək üçün bərəyə 22 saat vaxt lazımdır. Bu müddətdə normal yuxu rejimindən söhbət gedə bilməz. Bərədə keçirdiyimiz 3 gün ərzində biz də istər-istəməz həmin rejimə düşmüşdük: İmkan varsa, yat, çünki bilmək olmaz, 1 saat sonra nə baş verəcək. Ona görə də, dənizçilərin sifətində demək olar ki, həmişə bir narahatlıq və qayğı görürsən.

Amma başqa cür də mümkün deyil. Hazırda nəqliyyat – Azərbaycanda post-neft dövrünün əsas strateji sahələrindən biridir. Bizim bərələr Türkmənbaşı və Aktau limanlarına durmadan səfərlər etməklə "Şərq-Qərb" nəqliyyat dəhlizinin dənizdən keçən hissəsini işlək saxlayırlar. Bunun nə qədər vacib olduğunu göstərmək üçün sadəcə deyim ki, Xəzərdə yeganə bərə donanması Azərbaycana məxsusdur. Yəni faktik olaraq böyük bir nəqliyyat dəhlizi bizim gəmiçilərin çiynində dayanıb.

"Balakən" bərəsi bir dəfəyə 54 vaqon götürə bilir. Onların bir qismi xüsusi lift vasitəsilə aşağı göyərtəyə endirilir, orada gəminin özünün kiçik teplovozları vaqonları qırağa çəkirlər, lift qalxır və əməliyyat təkrar olunur.

Gəminin yüklənməsi prosesinə nəzarət edən kapitanın ikinci köməkçisi Mövlud Səlimovun 29 yaşı var, yeni ailə qurub.

- Bayramı evdə keçirməyəcəyin üçün ailədə söz-söhbət olmadı ki?

- Bir az oldu. Amma gəmiçilərin həyat yoldaşları kiminlə ailə qurduqlarını bilirlər. Hərçənd, yenə də vəziyyətlə barışmaları çətin olur. Mən özüm də gəmiçi ailəsində böyümüşəm, bunun nə demək olduğunu yaxşı bilirəm. Təsəvvür edin ki, ailənin bir üzvü gedir və aylarla onun yeri boş qalır. Hər işdə o boşluq hiss olunur ki, evdə bir nəfər çatışmır... Bu, dəhşətli hissdir.

Vaqonların yüklənməsi başa çatır, onlar zəncirlə göyərtəyə bərkidilir, xüsusi dayaqlar qoyulur ki, gəmi güclü küləyə düşsə, vaqonlar aşmasın. Əks halda bərənin tarazlığı pozula və faciə baş verə bilər. Ona görə də, gəmiçilər bu sözü tez-tez təkrarlayırlar: "Dəniz zarafatı sevmir". Burada ən xırda detala da son dərəcə ciddi yanaşmalısan, çünki gəmiçi də minaaxtaran kimi, səhvi ancaq bircə dəfə edir.

Vaqonlar tam hazır olandan sonra bərənin ümumi balansı yoxlanılır, ehtiyac olsa, ballast çənlərinə əlavə su vurulur. Və yola düşmək olar: "vaxt-puldur" ifadəsi gəmiçilikdə xüsusilə praktik məna daşıyır.

...Kapitan körpüsündə işgüzar bir gərginlik var. Komanda saat mexanizmi

















kimi dəqiq və sərrast işləyir. Dəqiq komandalar verən gənc kapitanın üzündəki yorğunluğa bir azca gərginlik də əlavə olunub.

- 179 dərəcə!
- Oldu, 179 dərəcə.
- Sükan, sağa 5!
- Oldu, sağa 5.
- 181 dərəcə!
- Oldu, 181 dərəcə.

Körpüdən aralanma həssas prosesdir. Ələt limanında suyun altında kanal qazılıb və gəmi həmin kanalla hərəkət edir. Əgər kanaldan çıxsa, bərənin altı yerə dəyə və "otura" bilər. "Balakən" bərəsinin orta hesabla 4.5 metrlik hissəsi suyun altında olur. Ona görə də, kanaldan çıxmamaq üçün son dərəcə diqqətli olmaq lazımdır.

Kapitanla müsahibədən:

- Adətən görmüşük ki, kapitanlar yaşlı, zəhmli, sərt olurlar. Siz bunun tam əksisiniz. Bu, istisna haldır, yoxsa meyarlar dəyişir?

- Biz də lazım gələndə sərt də oluruq, cəzalandırmağı da bacarırıq. Əgər Rauf müəllim (Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbəri Rauf Vəliyev – V.M.) bu işi mənə həvalə edibsə, çalışıram ki, etimadı doğruldum, hansı ölkəyə gediriksə, Azərbaycanı yüksək səviyyədə təmsil edək. Dövlət başçısının gənclərə etimad göstərmək siyasəti bizim idarədə çox qabarıq nəzərə çarpır. Rauf müəllim gənclərə inanır və böyük üstünlük verir. Həmişə deyir ki, dövlətimizi layiqincə təmsil edin. Bu, böyük etimaddır. Kapitan 24 saat gərginlikdə olur. Mən otağımda olanda da, yatanda da beynim gəminin yanındadır, sükan otağındadır. Çünki daşıdığım məsuliyyətin nə qədər böyük olduğunu dərk edirəm.

- Rauf müəllim özü şəxsən siz kapitanlarla ünsiyyətdə olurmu?

- Bəli! İstədiyimiz vaxt gedib qəbuluna düşə, istənilən məsələ haqqında danışa bilirik. Nə vaxt desələr "kapitan gəlib", deyir buyursun.

...Doğrudan da, gəmi yolda olarkən Rauf Vəliyevin adından radioqram gəldi: O, bütün kapitanları və gəmi heyətlərini Yeni il münasibətilə təbrik edirdi. Bu gözəl jest bir daha xatırlatdı ki, gəmiçilər bayramı dənizdə keçirəcəklər.

Bərədə rahat yaşamaq üçün bütün şərait var: kayutlar təmiz, isti və rahatdır. Gündə 3 dəfə yemək verilir, stolların üstündə turşular, yaşıl salat, sular və şirələr, meyvə, hətta ketçup və limon suyu da var. Gecə bufet bağlanandan sonra yeməklərin bir qismini stolun üstünə qoyurlar ki, kimsə acsa, yeyə bilsin.

Gəmidə ilk dəfə yol getmək insana bir qədər vahiməli gəlir: Sən rahat, isti yataqda uzanmısan, amma bilirsən ki, cəmi 3-4 metr o tərəfdə bumbuz zülmətli dəniz, güclü külək var. Amma sən bu soyuq cəhənnəmin içində rahatca yatmalısan... Məndə ilk cəhddən alınmadı.

Gecə 2-dir, qalxıb kapitan körpüsünə gedirəm. Orada Mövlud növbətçidir, diqqətlə elektron xəritəyə və radara baxır. Ətrafa baxmağın isə mənası yoxdur: Hər yer zülmət qaranlıqdır, 20 m/s gücündə külək əsir, dəniz görünmür və sən elə bilirsən ki, gəmi elə zülmət qaranlığın içində yırğalanır.

- Yırğalanma tutmayıb ki? – məni görən Mövlud soruşur.

- Yox. Amma nə gizlədim, bir az vahimәlidir...

- Budur vahiməli? – Gənc dənizçi gülümsəyir,- Biz elə yırğalanma görmüşük ki, bax, elə bu otaqda bu başdan o başa diyirlənmişik. Bu, yüngül layladır sadəcə...

Sonra isə ciddiləşib, əlavə edir:

- Əsl vahiməli bilirsən nədir? Aylarla ailəni görmürsən, 20-25 insanla balaca bir qapalı yerdə qalırsan; onlar nə qədər gözəl insan olsalar da, eyni sifətləri görməkdən yorulursan... Bəzi ölkələrdə gəmidən qayıtmış adamları məhkəməyə şahid qismində çağırmırlar ki, psixologiyaları yerində olmaya bilər.

Kapitanla müsahibədən:

- Gəmi dar bir məkandır, burada 20-25 adam aylarla bir yerdə qalır. Yəqin ki, istər-istəməz narazılıqlar, konfliktlər qaçılmazdır... Belə hallarda necə edirsiniz?

- Konfliktlər ola bilər, hamı insandır. Kiminsə kimdənsə xoşu gəlməyə bilər. Amma bu, bizim işimizə təsir edə bilməz və etmir də.

- Komandanı kapitanın özü formalaşdırır?

- Bəli. Mən hansısa kadrı gətirmək istəsəm, bu haqda məsələ qaldıra bilərəm.

- Bəs kimsə sizi qane etməsə, onu kənarlaşdırmaqda sərbəstsinizmi?

- Bəli. Belə hal olub. Amma söhbət yalnız işdən gedir. Şəxsi münasibətlərin məsələyə heç bir dəxli ola bilməz.

...Səhər artıq külək yatmışdı və gəmi dənizin yüngül qırçınlı səthi ilə saatda 13 dəniz mili sürətilə (təxminən 24 km/s) Qazaxıstan sahillərinə doğru gedirdi. Bu sürəti bərəyə onun hər biri 2000 at gücündə olan 2 böyük mühərriki verir. Gəminin baş mexaniki Hənifə Cəbrayılov bizim üçün maşın şöbəsinə maraqlı bir ekskursiya təşkil edir. Əgər sizin gözlərinizi bağlayıb, gətirib burada açsalar, özünüzü hansısa zavodda hiss edərsiniz. Xüsusi ayrılmış otaqda hətta tokar dəzgahı var.

Gəmi dənizdə olarkən mühərrikin və ya hərəkət mexanizminin hansısa detalı xarab olsa, mexaniklər onu yerindəcə təmir etməyə qadirdirlər. Mühərrik gəminin iki aşağı göyərtəsi hündürlükdədir. Təkcə porşen silindirləri təxminən mən boydadır.

...Aktau bizi sahildəki zavod bacalarından qalxan qalın tüstü sütunları ilə qarşılayır. Reysin ən məsuliyyətli məqamı çatıb: körpüyə yanalma əməliyyatı. Hətta təcrübəli kapitanlar da bu məqamda həyəcan keçirirlər. Təsəvvür edin: 155 metr uzunluğunda bərəni bizim məişət dililə desək, arxa tərəfi görmədən santimetr dəqiqliyi ilə "parkovka" etməlisən. Bərədəki relslərin ağzı körpüdəki relslərə dəqiq oturmalıdır ki, vaqonlar çıxa bilsinlər.

Kapitan əvvəlcə körpünün qabağında bərə üçün düzgün mövqe seçir, gəminin burnunu sağa doğru hərləyib, sonra arxasını körpüyə tərəf verir. Yardım üçün qazaxların yedək gəmisi yaxınlaşa da, onun xidmətindən istifadə etmir.

Maraqla prosesi izləyirdim: bərənin yanları amortizator əvəzi körpünün qıraqlarında asılmış köhnə avtomobil təkərlərinə sürtünəcəkmi? Sürtünmədi, bir neçə santimetrə qədər yaxınlaşsa da, toxunmadı. Gənc kapitan Cəlal Orucov 155 metrlik bərə ilə sanki zərgər işi görür.

Kapitanla müsahibədən:

- Biz illərlə sürdüyümüz maşını "parkovka" edəndə çətinlik çəkirik. Bu boyda gəminin körpüyə belə dəqiqliklə yan almasını necə, harada öyrənirsiniz?

- İnanın ki, heç biz də maşını yaxşı "parkovka" edə bilmirik. Amma burada başqadır: mən özümdən 155 metr aralıda nəyin baş verdiyini bilməli və nəzərə almalıyam. Çox məsuliyyətli məqamdır.

- Gəmini idarə etməyi öz Dəniz Akademiyamızda öyrənmisiniz?

- Bəli. Ümumiyyətlə, sizə deyim ki, Azərbaycan gəmiçiləri çox güclüdürlər, dünyanın hər bir yerində işləyirlər. Tam səmimi sözümdür, Rusiyanı çıxmaqla, başqa ölkələrdə bizdəki qədər güclü gəmiçilər yoxdur. Hər halda, mən rast gəlməmişəm.

Bizim gəmiçiliyin tarixi də zəngindir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsası 1858-ci il mayın 21-də "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub. XIX əsrdə Bakıda neft hasilatının artımı Xəzərdə gəmiçiliyin inkişafına təkan verib. Dünyada ilk neftdaşıyan "Aleksandr" barjı 1873-cü ildə Xəzərdə istifadəyə verilib. İlk tanker – "Zərdüşt" də 1878-ci ildə Xəzərdə suya buraxılıb. İlk daxiliyanma mühərrikli "Vandal" (1903-cü il), iki mühərriklə çalışan ilk reversivli "Delo" (1908-ci il) gəmilərində üzmək də Xəzər dənizçilərinin qismətinə düşüb.

...Vaqonlar gəmidən boşaldılanda gurultu qopur və səma işıqlanır: Aktau Yeni ilin gəlişini atəşfəşanlıqla qeyd edir. Bizim saatla isə hələ 23:00-dır, amma gəmidə tam sürətlə Yeni il hazırlıqları gedir. Bufetdə yolka qurulub, Yeni il süfrəsinin ayrılmaz atributu "paytaxt" salatı da daxil olmaqla, 4 növ salat hazırlanıb, plov dəmlənib... Deyim ki, çox ləzzətli plov idi.

Kapitan da gəlib heyətə qoşulur və bayram süfrəsinə əyləşir. Yeyib qalxanlar istirahət otağında musiqiyə səs verərək, əylənirlər. Bayram əhvalından istifadə edib, kapitana bir neçə zarafatyana sual vermək şansını qaçırmıram:

- Aygün Kazımovanın "Matros" mahnısını eşitmisiniz?

- Əlbəttə! Amma niyə matros? Sahilə kapitan çıxır axı...

- Bəs Röyanın "Gəmiçilər" mahnısını necə?

- Onu da eşitmiəm.

- Maraqlıdır: Doğrudanmı gəmiçilər Röyanın vurduğu düyünü aça bilməzlər?

- Elə açarıq ki! Biz nə düyünlər görmüşük...

- "Titanik"lə bağlı belə bir məşhur zarafat var: "Filmə gəmiçi zehniyyətilə baxsan, heç bir zövq ala bilməzsən". Siz "Titanik"ə baxanda zövq ala bilirsiniz?

- Mən sadəcə, film kimi baxıram.

- Bəs baxanda ağlınızdan keçirmi ki, məsələn, burada kapitan filan səhvi etdi?

- (Ciddiləşir...) Bilirsiniz, gəmi qəzası elə bir şeydir ki, əgər özün hadisə yerində olmamısansa, heç vaxt dəqiqliklə heç nə deyə bilməzsən.

...Gəmi heyəti uzaq sahillərdə Yeni ili qeyd edirdi. Əlbəttə, bir tərəfdən baxanda, ailənin yanında bayram keçirmək daha gözəl olardı. Amma digər tərəfdən, hazırda yad sularda olsaq da, bu gəmi Vətənin bir parçasıdır, Azərbaycandır. Biz Qazaxıstanda ola-ola, Azərbaycanda, "Balakən"dəyik, ətrafda da həmvətənlərimiz! Maraqlı hissdir. Axı bu bayram həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.

Vaqonların boşaldılıb-yüklənməsi haradasa 4 saat çəkir və səhər 5-də lövbəri qaldırmaq zamanı gəlir. Qeyri-ixtiyari soruşuram:

- İndi çıxmaq bu qədər vacibdir ki? Yatıb dincəlib, səhər çıxsaq, nə olardı?

"Starpom" Ziya Əhədov radarın ekranına işarə edir:

- Görürsən, o, "Akademik Həsən Əliyev" bərəsidir. Bizi gözləyir. Biz çıxmalıyıq ki, körpüyə yan alsın.

"Strapom" – yəni kapitanın baş köməkçisi gəmidə ikinci adamdır. Bütün prosesin idarə olunmasında onun çox böyük rolu var. Ziya da gəncdir, amma gəmiçilik işini çox yaxşı bilir. Buna səfər zamanı dəfələrlə əmin oldum.

Etiraf edim ki, ikinci günün sonunda yorulduğumu hiss edirəm. Xüsusilə də sabit yuxu rejiminin olmaması adamı əldən salır. Amma yatmaq da alınmır. Kapitan da oyaqdır, tez-tez kayutundan çıxıb, sükan otağına gəlir. Gəmi "avtopilot" rejimində olsa da, sükan otağını bircə anlıq belə, boş qoymaq olmaz, qoymurlar da: orada həmişə kimsə var.

Kapitanla müsahibədən:

- Bir anlıq fərz etsək ki, elektronika sıradan çıxdı, GPS söndü, peyk rabitəsi itdi... Gəmini lazım olan yerə aparıb çıxara bilərsinizmi?

- Bəli. Heç bir problem yoxdur. Elektron xəritə son bir neçə ildə çıxıb. Ona qədər elə dədə-baba qaydası ilə gəmini sürürdük. Və bunun üçün lazım olan cihazlar da gəmidə var.

- Yəni adi maqnit kompası, ulduzların bucağını ölçən üsturlab, adi xəritə və pərgar kimi?..

- Bəli, bəli... buyurun, gedək göstərim.

Ələtə gecə çatdıq. Biz limana doğru gedəndə digər bərəmiz – "Bərdə" artıq yola çıxmışdı. O da "Balakən" ilə eyni tipdədir, hətta rəngləri və quruluşları da eynidir. Ümumilikdə, Azərbaycanın bu gün 13 bərəsi var. Onlar durmadan Ələt ilə Aktau və Türkmənbaşı limanları arasında səfər edirlər. Dayanmaq olmaz. Bu dəniz yolu "Şərq-Qərb" nəqliyyat dəhlizinin olduqca vacib hissəsidir, bizim bərələr isə iki qitəni bir-birinə bağlayan dəniz yolunun işlək qalmasını təmin edirlər.

Limanda kapitan Cəlal Orucovla sağollaşırıq – o, gəmini məndən qabaq tərk edir. Çünki mən hələ sənədləşdirmədən keçməliyəm, o isə evinə tələsir – ailəsini görmək üçün bir neçə saat vaxtı var. Səhər saat 7-də evinə çatacaq, günorta isə yenə gəmidə olmalıdır. Və yenə də iki yaşlı qızı onu qucaqlayıb, başını sinəsinə qoyaraq, "Ata mənimdir. Ata getmə" deyəcək. Yenə də gəmi yola düşəcək. Yenə də onlarla, yüzlərlə ailə dənizdən gələn xəbərləri, hava məlumatlarını dinləyərək, gedənlərin sağ-salamat qayıtmasını gözləyəcək. Yenə də küləklər qalxacaq, dalğalar nəhəng bərəni bir uşaq beşiyi kimi yırğalayacaq.

Kapitanla müsahibədən

- Heç dənizdə qorxduğunuz olubmu?

- Olub. 22-23 yaşım vardı, kapitan köməkçisi idim. Cəbəllüttariqdə çox böyük dalğaya düşmüşdük. Bax, onda qorxmuşdum.

Boşuna demirlər ki, hara getdiyini bilən gəmiyə küləklər qorxulu deyil. Azərbaycan gəmiçiliyi hara getdiyini bilir, ona görə də inkişafdadır. İndi bizim təkcə müasir gəmilərimiz yox, gənc və çox bacarıqlı kapitanlarımız, mexaniklərimiz, dənizçilərimiz var. Bu sahədə irəli getməyimizə heç bir fırtına mane ola bilməz.

***Vüsal Məmmədov***
***Fotolar Miri Məcidlinindir.***
***AzVision.az***

# ÖTƏN İL BTC KƏMƏRİ İLƏ 28,8 MİLYON TON AZƏRBAYCAN NEFTİ NƏQL OLUNUB

***2016-cı ilin dekabr ayı ərzində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri (BTC) vasitəsilə 2 milyon 386 min 450 ton Azərbaycan nefti nəql edilib.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, ötən ilin yanvar-dekabr aylarında bu kəmərlə 28 milyon 862 min 673 ton neft ötürülüb. Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2017-ci il yanvar ayının 1-dək BTC-yə 321 milyon 538 min 62 ton neft vurulub.



Bundan başqa, 2016-cı ilin dekabr ayında BTC kəməri ilə 441 min 271 ton Türkmənistan nefti nəql olunub.

# CEYHAN LİMANINDAN 320 MİLYON TONADƏK AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARINA ÇIXARILIB

***2016-cı ilin dekabr ayı ərzində 1 milyon 887 min 729 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 1 milyon 374 min 823 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib.

Ötən ilin yanvar-dekabr aylarında Ceyhan limanından ixrac olunmuş neftin həcmi 28 milyon 640 min 827 ton olub.

Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri (BTC) istismara verilən gündən 2017-ci il yanvar ayının 1-dək Ceyhan limanından 319 milyon 834 min 599 ton Azərbaycan nefti dünya bazarına yola salınıb.



DƏNİZ



# DƏNİZ ÜZGÜÇÜLÜYÜNÜN TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ MÜZAKİRƏ EDİLİB

***Azərbaycan və Ukrayna arasında dəniz üzgüçülüyünün təhlükəsizliyi sahəsində ikitərəfli əməkdaşlıq müzakirə olunub.***

Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən verilən xəbərə görə, müzakirələr Azərbaycan Respublikasının və Ukraynanın Prezidentlər Şurasının V İclasının Protokolunun və Azərbaycan ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Birgə Hökumətlərarası Komissiyasının 11-ci iclas Protokolunun icrasının təmin edilməsi ilə əlaqədar, Odessa şəhərində Ukraynanın İnfrastruktur Nazirliyinin əməkdaşları ilə işçi görüşü zamanı aparılıb.

İşçi görüşündə hər iki ölkə arasında dəniz nəqliyyatının inkişafı sahəsində ikitərəfli əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyəti vurğulanaraq, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının fəaliyyət istiqamətləri, vəzifələri və səlahiyyətləri barədə Ukrayna tərəfinə ətraflı məlumat verilib.



Görüşdə dəniz üzgüçülüyünün təhlükəsizliyi sahəsində ikitərəfli əməkdaşlığın həyata keçirilməsi üçün dövlət bayraq və liman nəzarəti, gəmilərin hərəkətinin idarəetmə xidmətinin fəaliyyəti, dəniz üzgüçülüyünün təhlükəsizliyi sahəsində tariflərin tətbiq edilməsi, dəniz hidrotexniki qurğularının qeydiyyatı, dənizdə gəmilərin uzaq məsafədən tanınması və izlənməsi, keyfiyyətə nəzarət sisteminin tətbiqi, fəaliyyət istiqamətlərinə uyğun olaraq elektron xidmətlərin təkmilləşdirilməsi, təsnifat cəmiyyətlərinin fəaliyyətlərinə razılıq verilməsi və onların işinə nəzarət edilməsi, Ukraynada dəniz axtarış xilasetmə koordinasiya fəaliyyəti və hüquqi aspektləri sahəsində müzakirələr aparılıb. Həmçinin təcrübə mübadiləsinin perspektivləri nəzərdən keçirilib.

Görüş dəniz nəqliyyatı sahəsində əməkdaşlığın genişləndirilməsi və uğurla davam etdirilməsi üçün qanunvericiliklə müəyyən edilən səlahiyyətlər çərçivəsində, hər iki qurum arasında təcrübə mübadiləsinin aparılması, ikitərəfli işçi qaydada məsləhətləşmələrin davam etdirilməsi və növbəti işçi görüşün Bakı şəhərində həyata keçirilməsinin mümkünlüyü barədə müzakirələrlə yekunlaşıb.



# “ŞİMAL-CƏNUB” DƏHLİZİ ÇƏRÇİVƏSİNDƏ İRANDA TİKİLƏN DƏMİRYOLU KÖRPÜSÜ YANVARIN 19-DA İSTİSMARA HAZIR OLACAQ

***Yanvarın 19-da “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində tikilən İranın ən iri dəmir yolu körpüsü istismara hazır olacaq.***

“Financial Tribune” saytı xəbər verir ki, bu barədə İranın yol və şəhərsalma nazirinin müavini Xeyirullah Xadəmi deyib.

Onun sözlərinə görə, körpünün tikintisi iki həftəyə yekunlaşacaq. “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində İran istiqamətində Astara (Azərbaycan)-Astara (İran)- Rəşt-Qəzvin dəmir yolu xəttinin bir hissəsi olan bu körpü yanvarın 19-da istismara hazır olacaq.

Yerli mütəxəssislər tərəfindən icra edilən layihə barədə məlumat verən X.Xadəmi söyləyib ki, 1,43 kilometr uzunluğunda olan körpü İranın Gilan vilayətində yerləşən Məncil şəhərində Səfidrud çayının sahillərini birləşdirəcək. Bu körpü son inşaat mərhələsində olan Qəzvin-Rəşt dəmir yolunun da bir hissəsidir.

Hesablamalara görə, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi istismara veriləndən sonra Azərbaycan ilə İran arasında mövcud 600 min ton ticarət dövriyyəsi ildə 5 milyon tona (ildə 500 milyon dollar) yüksələcək.

# “XANKƏNDİ” XƏZƏR HÖVZƏSİNDƏ ANALOQU OLMAYAN GƏMİDİR

## Bu yeni gəmi “Cənub Qaz Dəhlizi”nin reallaşmasına sanballı töhfə verəcək

***2016-cı ilin yaddaqalan hadisələrindən biri də may ayında “Xankəndi” sualtı tikinti gəmisinin Bakı Gəmiqayırma Zavodunun yanalma körpüsündən suya endirilməsi oldu. “Xankəndi” xüsusi olaraq “Şahdəniz-2” layihəsinin sualtı konstruksiyalarını quraşdırmaq üçün layihələndirilib və inşa edilib.***

Bu nəhəng gəmi suya endirildikdən sonra əsas kranla təchiz olundu. Bundan sonra isə sertifikatlaşdırma və istismar sınaqlarına başlandı.

Gəminin iki iri gövdə seksiyası Bakıya Sinqapurdan gətirilmiş və burada inşası başa çatdırılmış burun hissəsi ilə birləşdirilmişdir. 2017-ci ilin aprel ayında “Şahdəniz-2” üzrə sualtı quraşdırma işləri başlananadək gəmi tam hazır olacaq. Həmin vaxtadək “Xankəndi” zavodun yanalma körpüsündə qalacaq.

Mütəxəssislərin fikrincə, bu gəmi təkcə Azərbaycanın deyil, bütövlükdə Xəzərin gəmiçilik tarixində yeni bir eranın başlanğıcını qoyur. Ölkəmizin neft və qaz donanmasının yeni texnologiyalı ən müasir gəmisi olan “Xankəndi” suyun dərinliyinin 550 metrədək çatdığı ərazilərdə Xəzərdə ilk dəfə dünya səviyyəli sualtı qurğular inşa etmək üçün nəzərdə tutulub. Gəmi 10 il - 2017-2027-ci illər ərzində “Şahdəniz” yatağında işləyəcək və bununla da “Cənub Qaz Dəhlizi”nin gerçəkləşməsinə öz töhfəsini verəcək.




“Xankəndi” təsnifat nəzarəti altında tikilmiş nadir gəmidir. Gəminin uzunluğu 155, eni 32, əsas göyərtəsi 13 metrdir. Bu unikal gəmi böyük dalğalarda fəaliyyət göstərə bilmək üçün dinamik mövqeləndirmə sisteminə malikdir. Onun 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 metrik-tonluq əsas kranı, iki ədəd 18 nəfərlik dalğıc kapsulu sistemi, eyni sayda məsafədən idarə olunan cihazı var. Möhkəmləndirilmiş avadanlıqendirmə şaxtası, 6 ədəd 4,4 meqavat və 2 ədəd 3,2 meqavat gücündə generatoru olan iki mühərrik bölməsi də gəminin nəhəngliyindən xəbər verir. Gəminin ümumi çəkisi 17600 tondur və suya oturumu 6,5 metr olmaqla daşıma gücü 5000 metrik-ton təşkil edəcək.

Hazırda gəminin tam istismara verilməsi üçün hazırlıq işləri nəzərdə tutulduğu qrafikə uyğun gedir. Sentyabr ayında gəminin əsas mühərrikləri işə salınıb.

Qeyd edək ki, “Xankəndi”nin məhz Bakı Gəmiqayırma Zavodunda inşa edilməsi ikiqat nailiyyətdir. Çünki bu zavodun tikintisi özlüyündə son illərdə Azərbaycanda həyata keçirilən ən iri iqtisadi layihələrdən biri sayılır. Yeni zavod ölkəmizin iqtisadi gücünü və bütün sahələrdə öncül mövqelərə malik olmasını təsdiqləyir. Bu müəssisənin işə düşməsi tədricən Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığını aradan qaldıracaq, Xəzər donanmasını müasirləşdirməyə imkan verəcək.

Zavod Qaradağ rayonu ərazisində, Bakı-Astara magistral yolunun 25-ci kilometrliyində Keppel, Böyük Britaniyanın “Royal Haskoning” və Norveçin “TTS Handling System AS” şirkətlərinin birgə hazırladıqları konseptual layihə əsasında SOCAR-ın “Neftqaztikinti” Tresti tərəfindən inşa edilib. Müəssisə Finlandiya, Niderland, Almaniya, Çex Respublikası, Böyük Britaniya, Koreya və Sinqapurda yüksək standartlar səviyyəsində istehsal edilmiş avadanlıqla təchiz olunub. İstehsal prosesində metalkəsmə, profiləymə, lövhəəymə, üçölçülü borukəsmə rəqəmsal avadanlığı kimi müasir texnoloji vasitələrdən istifadə olunur.

Müəssisə elə layihələndirilib ki, böyük həcmdə yükgötürmə qabiliyyəti olan gəmiləri tikmək və müxtəlif təyinatlı gəmiləri təmir etmək imkanına malikdir. Geniş və müasir infrastruktura malik olması da onun nəhəngliyini göstərir. Belə ki, zavodun beşmərtəbəli inzibati binası, istehsalat sahələri, təlim mərkəzi, özünün elektrik təchizatını etibarlı şəkildə təmin etmək üçün yarımstansiya binaları var.

Təkcə yanalma körpüsünün uzunluğu 1630 metrdir. Həmin yanalma körpüsündə indi zavodun tikdiyi, indiyədək Xəzərdə analoqu olmayan “Xankəndi” gəmisi dayanıb. Bu gəminin inşasının uğurla başa çatdırılması zavodun aldığı sifarişləri böyük səriştə və yüksək keyfiyyətlə yerinə yetirdiyini göstərir və yeni müvəffəqiyyətlərə zəmanət verir.

***Flora SADIQLI***

# ARALIQ DƏNİZİNDƏ TƏBİİ QAZ AXTARACAQ



***Misir ilə İtaliyanın “Eni” neft-qaz şirkəti arasında Misirin su sərhədlərində təbii qaz axtarışı üzrə müqavilə imzalanıb.***

Müqaviləyə görə, 2017-ci ilin ilk rübündən etibarən Misir Aralıq dənizindəki su sərhədlərində təbii qaz axtaracaq.

Misirin neft və mineral ehtiyatlar naziri Tarık əl Molla ölkəsinin İtaliyanın “Eni” neft-qaz şirkəti ilə Aralıq dənizindəki su sərhədlərində yerləşən “Zöhr” qaz yatağında kəşfiyyat üzrə müqavilə imzaladığını bildirib.

O, 2015-ci ilin avqustunda kəşf edilən və super-nəhəng qaz yatağı olan “Zöhr”də təxminən 30 trilyon kubfut (təxminən 2,7871 trilyon kubmetr) qaz ehtiyatı olduğunun təxmin edildiyini deyib.

Kəşfiyyat işlərinin 2017-ci ilin ilk rübündə başlayacağını bildirən nazir təbii qazla yanaşı, xam neft də hasil ediləcəyi təqdirdə bölgənin “əsrin quyusu” olacağını qeyd edib.

# BÜTÜN İSTİQAMƏTLƏR ÜZRƏ CİDDİ ARTIM QEYDƏ ALINIB

***2016-cı ildə Bakı Limanında yükaşırma 47 faiz artıb.***

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə iqtisadiyyatının diversifikasiyasına yönəlmiş siyasətinin tələblərinə cavab verərək, “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC xarici yüklərin cəlb olunması, Limanda dünya standartlarına cavab verən əməliyyat standartların tətbiqi üçün fəaliyyətini davam etdirib. Nəticədə 2016-cı ildə Bakı Limanında bütün istiqamətlər üzrə ciddi artım qeydə alınıb. Ümumi yükaşırmanın həcmi ötən ilin müvafiq dövrünə nisbətdə 47 faiz artaraq 4,5 milyon tona çatıb. Yükaşırmanın 87 faizi tranzit yükaşırmanın payına düşüb.

Eyni zamanda ən böyük artım təkərli texnikanın xüsusən də, irihəcmli nəqliyyat vasitələrinin (TIR) aşırılmasında qeydə alınıb. Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə Bakı Limanının xidmətlərindən istifadə edən bu tipli nəqliyyat vasitələrinin sayı 3 dəfəyə yaxın artıb və rəqəm ifadəsində 23 min 415 ədəd irihəcmli nəqliyyat vasitəsi təşkil edib. Məlumat üçün qeyd edək ki, bu rəqəm keçən ilin müvafiq dövründə 8756 ədəd olub. Bunların 13 min 791 ədədi (58,3 faiz) Bakı-Aktau-Bakı istiqamətində, 9850 ədədi (41,7 faiz) isə Bakı-Türkmənbaşı-Bakı istiqamətində hərəkət edib.



2015-ci il ilə müqayisədə TEU ekvivalentində konteynerlərin aşırılması 28,5 faiz artaraq 17 min 100 TEU təşkil edib. Neft və neft məhsullarının aşırılması isə 2 dəfəyə yaxın (87,5 faiz) artaraq 1 milyon 575 min tona çatıb. Ələt qəsəbəsində yerləşən yeni Bərə Terminalında vaqon aşırılması 17,4 faiz artaraq 36 min 896 ədədə çatıb. Bunlardan 11 min 109 vaqon (30,1 faiz) Bakı-Aktau-Bakı istiqamətində, 25 min 787 (69,9 faiz) Bakı-Türkmənbaşı-Bakı istiqamətində hərəkət edib. Hər iki istiqamətdə sərnişindaşıma isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfəyə yaxın artaraq 20 min 203 nəfər olub.

Bakı şəhərində yerləşən Əsas Yük Terminalında aşırılan yüklərin miqdarı 2016-ci ildə keçən ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz artaraq 418,1 min ton olub. Aşırılan yüklərin böyük hissəsi tranzit konteynerlərin və tikinti materiallarının idxalının payına düşüb.

# 96 TRİLYON KUBMETRLİK TƏBİİ QAZ VƏ 865 MİLYON BARRELLİK NEFT EHTİYATI OLDUĞUNU PROQNOZLAŞDIRIR

***Livan Aralıq dənizində neft və təbii qaz axtarışı üzrə yenidən tender elan edib.***

“reuters.com” xəbər verir ki, Livanda yeni hökumət tərəfindən 2013-cü ildən bəri dayandırılan Aralıq dənizində neft və təbii qaz axtarışı üzrə tender prosesinə yenidən başlamaq üçün iki fərman imzalanıb.

Livan Aralıq dənizi sahillərində 96 trilyon kubmetrlik təbii qaz və 865 milyon barrellik neft ehtiyatı olduğunu proqnozlaşdırır.

Fərmanlara əsasən, hasilat və kəşfiyyat tenderləri ilə imzalanacaq sazişlərin şərtləri müəyyən edilir. Hökumət, eyni zamanda, karbohidrogen sənayesi üzrə vergi tənzimləməsi və bir karbohidrogen qanunu hazırlamaq üçün iki ayrı komissiya yaradılmasına qərar verib.

2013-cü ildə neft və təbii qaz axtarışı üzrə tenderlərdə iştirak etmək hüququ qazanan 46 şirkətdən yenidən əməliyyat üzrə müraciət edən 12 şirkət arasında “Chevron”, “Total” və “Exxon Mobil” də var.

# GÜNDƏ ORTA HESABLA 14 QAÇQIN VƏ MİQRANT DƏNİZDƏ HƏLAK OLUB





***BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı digər ölkələrdə sığınacaq axtaran qaçqın və miqrantlar arasında qurbanların sayının artmasından xeyli narahat olduğunu bildirir. Onların çoxu kontrabandçıların xidmətindən istifadə edir və Avropaya gedən yolda Aralıq dənizində batır. Keçən həftə dənizdə 100-dən çox adamın həlak olması barədə məlumat daxil olub.***

BMT-nin Xəbərlər Mərkəzi bildirir ki, 2016-cı ildə 5000-dən çox qaçqın və miqrant Aralıq dənizində batıb.

Son vaxtlar müharibə və təqiblərdən ehtiyat edən xeyli sayda insan sərhədləri keçir. Aralıq dənizi sığınacaq axtaranların və miqrantların istifadə etdikləri ən təhlükəli marşrutlardan biridir.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, 2016-cı ildə gündə orta hesabla 14 qaçqın və miqrant dənizdə həlak olub. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə Avropaya Aralıq dənizi ilə bir milyondan çox qaçqın və miqrant keçib və 3771 nəfər həlak olub. Qaçqınlar üzrə Ali Komissarlıq bütün ölkələri, o cümlədən Avropa İttifaqı dövlətlərini qaçqınların müdafiəsini təmin etməyə, sığınacaq üçün leqal müraciət formalarına, o cümlədən ailələrin köçürülməsi və yenidən birləşdirilməsi proqramlarını genişləndirməyə imkan yaratmağa çağırıb.




# BƏRƏ YANIB

***İndoneziya sahillərində sərnişin daşıyan bərədə yanğın baş verib. Yanğın nəticəsində 2 nəfər həlak olub, 17 nəfər xəsarət alıb. Bundan başqa, 17 nəfər itkin düşüb.***

Bu barədə yerli Xilasetmə İdarəsi məlumat yayıb.

Hadisənin Cakarta yaxınlığındakı sularda baş verdiyi bildirilir. Bərənin göyərtəsində təxminən 200 sərnişin olub.



# BATAN GƏMİDƏ YERLİ FUTBOL KOMANDASININ ÜZVLƏRİ VƏ AZARKEŞLƏRİ OLUB

***Uqandanın Albert gölündə baş verən gəmi qəzasında 30-a yaxın insan həlak olub. Bu barədə keçən ilin dekabrın 26-da AFP agentliyi məlumat yayıb.***

Hadisə bazar günü baş verib. Batan gəmidə yerli futbol komandasının üzvləri və azarkeşləri olub.

Yerli polis idarəsinin nümayəndəsinin məlumatına görə, gəmidəkilər şənliyin gedişində göyərtənin bir tərəfinə yığışıblar. Nəticədə bərk yırğalanmağa başlayan gəmi çevrilib və gəmidəkilər göldə boğularaq ölüblər.

# “ŞİMAL-CƏNUB” VƏ “CƏNUB-QƏRB” BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Sürixdə “Şimal-Cənub” və “Cənub-Qərb” beynəlxalq nəqliyyat dəhlizlərinin perspektivləri müzakirə olunub.***

“Azərbaycan Dəmir Yolları” QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, müzakirələr İsveçrənin Sürix şəhərində “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanovla “InterRail Holding AG” şirkətinin sədri Hans Raynhard arasında keçirilən ikitərəfli görüş zamanı baş tutub.



Görüş zamanı İsveçrə yüklərinin “Şimal-Cənub” və “Cənub-Qərb” beynəlxalq nəqliyyat dəhlizlərinə cəlb edilməsi, isveçrəli tərəfdaşlarla əməkdaşlığın perspektivləri məsələsi müzakirə olunub.

“Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qayğı və dəstəyi ilə beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşması prosesində ölkəmiz aktiv iştirak edir, ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır. Əsas vəzifəmiz Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edərək, beynəlxalq nəqliyyat dəhlizləri çərçivəsində, Mərkəzi və Şərqi Asiyadan Avropaya və əks istiqamətdə, ölkə ərazisindən keçən marşrutlara, tranzit yüklərin cəlb edilməsidir. Bu marşrutlara yük axının cəlb edilməsi üçün bütün imkanlar səfərbər edilib.

C.Qurbanov, həmçinin bildirib ki, “Azərbaycan Dəmir Yolları” QSC-nin İsveçrənin “Stadler Rail Group” şirkəti ilə geniş əlaqələri mövcuddur. Hazırda şirkətin istehsalı olan KİSS markalı ikimərtəbəli elektrik qatarları Bakı-Sumqayıt marşrutunda istismar olunur. Eyni zamanda “Azərbaycan Dəmir Yolları” QSC-nin sifarişi ilə gələcəkdə Bakı-Tbilisi-Qars marşrutu üzrə hərəkət edəcək qatarlar üçün Azərbaycan tərəfi “Stadler” şirkətinə 30 ədəd yataq tipli vaqon sifariş edib.

“InterRail Holding AG” şirkətinin prezidenti Hans Raynhard öz çıxışında “Şimal-Cənub” dəhlizinin aktivləşdirilməsində çox maraqlı olduqlarını vurğulayıb. Həmçinin “Azərbaycan Dəmir Yolları” QSC ilə bu istiqamətdə həyata keçiriləcək strateji əməkdaşlığın önəmindən danışıb.

Qeyd edək ki, “InterRail Holding AG” şirkəti İsveçrənin “TransInvest” holdinqinə daxildir. Mərkəzi və Şərqi Avropa, Rusiya, Mərkəzi Asiya kimi ərazilərdə əlaqələri olan “TransInvest” 111 fərdi şirkətlərlə dünyanın 34 ölkəsində fəaliyyət göstərir.

Şirkətin əsas dörd coğrafi biznes istiqaməti var: Avropa İttifaqı-İsveçrə, Rusiya-Şərqi Avropa, Orta Şərq-Mərkəzi Asiya, Asiya–Uzaq Şərq. “TransInvest” İrandan Avropaya və Avropadan İrana yüklərin idxalı və ixracı ilə məşğul olan nəqliyyat şirkətidir. İranın müxtəlif şəhərlərində 14 ofisi ilə təmsil olunan bu şirkət Bəndər-Abbas və Tehran kimi şəhərlərdə 300 min kvadratmetr çox olan xüsusi anbarların və terminalların sahibidir.

“InterRail Holding AG” dəmir yolu ilə yükdaşıma xidmətləri üzrə Avropada və Avrasiya məkanında aparıcı şirkətlərdən biridir. Beynəlxalq blok qatarların operatoru kimi fəaliyyət göstərir. Avrasiya qitəsində, xüsusilə də MDB ölkələrində ümumi və konteynerləşdirilmiş yüklərin daşınması və konteyner ticarəti ilə məşğul olur. Geniş vaqon parkına sahibdir.

Şirkətin Belarusda, Çində, Almaniyada, Hindistanda, İranda, Qazaxıstanda, Polşada, Rusiyada, İsveçrədə, Ukraynada və Özbəkistanda törəmə şirkətləri və nümayəndəlikləri var.

# CƏNUB-ŞƏRQİ ASİYA ÖLKƏLƏRİNİN DƏNİZDƏ TƏHLÜKƏSİZLİYİ MƏQSƏDİLƏ YENİ TƏŞKİLAT YARADILIR

***Yaponiyanın Sahil Mühafizəsi Cənub-Şərqi Asiya ölkələrinin dənizdə təhlükəsizliyini möhkəmləndirəcək yeni təşkilat yaratmaq niyyətindədir. Bu barədə Kyodo agentliyi məlumat yayıb.***



Məlumatda qeyd edilir ki, yeni təşkilatın əsas vəzifəsi Cənub Çin dənizində Çinin artan ərazi iddiaları ilə bağlı region ölkələri arasında əməkdaşlığı gücləndirməkdir. Yaponiya Şərqi Çin dənizindəki Senkaku adaları ilə bağlı Tokio və Pekin arasında yaranmış ərazi mübahisəsi sahəsində təcrübəsini bu təşkilat vasitəsilə həmin ölkələrlə bölüşmək niyyətindədir. Bununla yanaşı, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması və dəniz quldurları ilə mübarizə məsələləri də diqqət mərkəzində olacaq.

Təşkilatın aprel ayında fəaliyyətə başlaması və dənizdə təhlükəsizliklə bağlı simpoziumlar keçirəcəyi gözlənilir. İlkin olaraq bu tədbirlərə Tailand və Myanmadan rəsmi şəxslər dəvət olunacaq.

Yaponiya hələ əvvəllər bir sıra ölkələrlə patrul gəmilərinin təqdim edilməsi barədə razılıq əldə edib.

Pekin artıq bir neçə on ildir ki, regionun bəzi ölkələri ilə Cənub Çin dənizindəki əsas ticarət yollarının keçdiyi adaların mənsubiyyəti ilə bağlı mübahisə aparır. Burada söhbət əsasən Sişa arxipelaqından (Paraselsk adaları), Nanşa (Spratli) və Huanyan (Skarboro) adalarından gedir. Həmin mübahisəyə bu və ya digər dərəcədə Vyetnam, Bruney, Malayziya və Filippin cəlb olunublar.

# TRANZİT VƏ ÜMUMİ DAŞIMALARDA ARTIM GÖZLƏNİLİR

***Strateji Yol Xəritəsinin icrası nəticəsində tranzit və ümumi daşımalarda, ikitərəfli və çoxtərəfli daşımalarda artım gözlənilir.***

Bu barədə TRASEKA nəqliyyat dəhlizi layihəsinin hökumətlərarası komissiyasının Azərbaycan üzrə Milli katibi Akif Mustafayev “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” ilə bağlı fikir bildirərkən deyib.

O bildirib ki, tranzit və ümumi daşımalarda artım təxminən 30 faizdən yuxarı gözlənilir.

“Azərbaycanda logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”ndə, həmçinin qeyd edilib ki, “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək üçün sərhəd-keçid prosedurları sadələşdiriləcək.




Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək məqsədilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi üçün idxal-ixrac əməliyyatlarına və tranzit yüklərinin daşınmasına sərf olunan vaxt və xərclər optimallaşdırılmalı, beynəlxalq dəhlizlər boyu yol infrastrukturları genişləndirilməli, yenidənqurma işləri və tikinti layihələri başa çatdırılmalı və beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. Ekspertlər hesab edir ki, Azərbaycanda həyata keçirilən çox mühüm infrastruktur layihələr ölkəmizi dünyanın ən böyük logistika mərkəzlərindən birinə çevirəcək.

Strateji Yol Xəritəsinə əsasən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Heydər Əliyev Beynəlxalq Aeroportu və ölkənin daxili ticarət şəbəkəsinə çevik inteqrasiyasını təmin etmək üçün avtomobil və dəmir yolu əlaqələri gücləndirilcək. Rayonlararası əlaqələrin yaxşılaşdırılması məqsədilə avtomobil yollarının tikintisi və təmiri prioritet olacaq. Yükdaşıma həcmi iqtisadi səmərəliliyi təmin edəcək səviyyəyə çatdıqdan sonra dəmir yolu əlaqələri də qurulacaq. Daha sonra qarşıya qoyulan məqsədlərin reallaşdırılması üçün sahilboyu ərazilərdə yeni logistika və ticarət mərkəzlərinin yaradılmasına başlanılacaq.

# İNSANLARIN HƏYATINI DƏYİŞDİRƏCƏK BEŞ TEXNOLOGİYA

***“IBM” şirkəti yaxın beş ildə insanların həyatını dəyişdirəcək beş texnologiyadan ibarət illik reytinqini dərc edib. Bu texnologiyalardan biri erkən mərhələdə psixiki və koqnitiv pozuntular, neyrodegenerativ xəstəliklərə diaqnoz qoymağa imkan verən şifahi və yazılı danışığın təhlili sistemidir.***




indicator.ru saytı xəbər verir ki, ikinci texnologiya “super qəhrəmanların görmə qabiliyyətidir”. Şirkətin mütəxəssislərinin fikrincə, beş il sonra dalğa uzunluğu diapazonunda görməyə imkan verən cihazlar geniş yayılacaq. Bu, ətraf aləmin öyrənilməsi üçün yeni imkanlar yaradacaq.

Böyük məlumatlar üzərində iş sahəsində irəliləyiş gözlənilir. Ekspertlər hesab edirlər ki, böyük massivli informasiyanı səmərəli emal etməyə imkan verən texnologiyalar, məsələn, ərzaq və enerji istehsalı problemlərinin həllini tapmağa kömək edəcək.

“Çipdə laboratoriyalar” adlandırılan dördüncü texnologiya orqanizmin maye təhlili zamanı normadan ən kiçik sapmaları qeydə almağa imkan verəcək. Beləliklə, simptomların yaranmasından əvvəl orqanların pozulmaları barədə məlumat əldə etmək mümkün olacaq.

Beşinci texnologiya ətraf mühitin çirklənməsinin aşkarlanması ilə bağlıdır. Sensor texnologiyalar, silisium fotonikası və süni intellekt təhlükəli maddələri bir anda aşkara çıxarmağa imkan verəcək.

# “LİTVA KLAYPEDA LİMAN ŞƏHƏRİNDƏ ERMƏNİ XAÇKARLARI QOYMAQLA SƏHVƏ YOL VERİB”

***Litvanın “www.slaptai.lt” portalında məşhur jurnalist, bu portalın rəhbəri Gintaras Visotskasın “Qrünvald döyüşündə litvalılara kömək edən...erməni alayı olub?” sərlövhəli məqaləsi dərc edilib.***

Məqalə müəllifi 2015-ci ildə sadəlövh Litvanın Klaypedada erməni xaçkarları qoyulmasına icazə verməsinin səhv addım olduğunu göstərir. G. Visotskas əmindir ki, bu addımların dərin siyasi mənası var. Hətta ilk baxışda Litva-erməni dostluğunun müsbət əlaməti olan bu addımın da siyasi nüansları çoxdur. Xüsusən ona görə ki, Klaypeda liman şəhərində qoyulmuş xaçkar Litvada yeganə deyil. Bundan əvvəl Kaunasdakı Krestovaya dağında da xaçkar qoyulub. Artıq Şyauylyay şəhərində də xaçkar qoymaq arzuları barədə xəbərlər eşidilir.

Jurnalist yazır ki, Litva ermənilərin bu dövlət ərazisində xaçkar qoymasına icazə verməklə istər-istəməz Türkiyəni özündən uzaqlaşdırır. Onun fikrincə, Litva öz ərazisində xaçkar qoyulmasına icazə verməzdən əvvəl heç olmasa bu məsələnin Türkiyə versiyasına da müraciət etməli idi: axı amansız rus-türk müharibəsi dövründə ermənilərlə yanaşı türklər də kütləvi şəkildə həlak olublar. G.Visotskas qeyd edir ki, Litva hələ 2005-ci ildə rəsmi Yerevana xüsusi ehtiramını bildirərək 1915-ci ildə erməni soyqırımını etiraf etmişdi.

2016-cı il dekabrın 24-də Ermənistanın Baltikyanı bölgədəki səfiri (bu səfirliyin iqamətgahı Vilnüsdə yerləşir) Tiqran Mkrtçyanın rus.delfi.ee portalına “Bizim ortaq cəhətlərimiz çoxdur” sərlövhəli müsahibəsi dərc ediləndən sonra xaçkarların xoş niyyətlə qoyulması məqalə müəllifində güclü şübhə doğurub. Erməni diplomat Estoniyaya rəsmi səfəri zamanı Ermənistanın Baltikyanı ölkələr barəsində planları haqda jurnalistə ətraflı məlumat verib.

Ermənilərlə pribaltlar arasında ümumi cəhətlər olmasına şübhə edən G.Visotskas vurğulayır ki, istər Litvanı, istər Latviyanı, istərsə də Estoniyanı son onilliklərdə bircə qarış belə özgə torpağını işğal etməkdə günahlandırmaq mümkün deyil. Ermənistan isə Azərbaycan ərazilərini hələ də işğal altında saxlayır.

Litvalı jurnalistin fikrincə, ən maraqlısı budur ki, Ermənistan səfirinin dediyinə görə, guya 1410-cu ildə Qrünvald döyüşündə litvalıların səlibçilərə qalib gəlməsinə kömək edən ...erməni alayı olub. G.Visotskas yazır: “görünür, Litvada yeni erməni abidələri qoyulması üçün ilkin şərait yaradılır. Ona görə ki, əgər biz ermənilərin burada xaç qoymalarına elə-belə, heç bir ciddi siyasi motiv və özümüz üçün fayda olmadığı halda imkan versək, onda Qrünvald döyüşündə köməyə görə qat-qat artıq dərəcədə təşəkkür bildirmək lazım gələcək”.

***Nigar Cəfərli***

# NƏHƏNG AYSBERQ PARÇALANA BİLƏR

***Antarktidada Larsen C buz şelfindən nəhəng bir aysberqin ayrılmaq üzrə olduğu ilə bağlı məlumat yayılıb.***



sciencedaily.com saytının verdiyi xəbərə görə, buz şelfində yaranmış çat nəticəsində 5 min kvadratkilometr sahəsi olan aysberq parçalana bilər. Tədqiqatçılar buz dağının parçalanmasının səbəblərini araşdırırlar.

Qeyd edək ki, aysberqin sahəsi Birləşmiş Krallığın Norfolk vilayəti və ya ABŞ-ın Delaver ştatının ərazisi qədərdir. Larsen C buz şelfi isə Uelsin ərazisindən iki dəfə böyükdür.






# TAP-IN İNŞASI ÜZRƏ İNDİYƏDƏK YUNANISTAN VƏ ALBANİYADA BORULARIN 129 KİLOMETRİ QAYNAQLANIB

***Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan “Trans-Adriatik” (TAP) qaz boru kəməri üzrə indiyədək Yunanıstan və Albaniyada boruların 129 kilometri qaynaq edilib.***

Bu barədə TAP-ın “twitter” səhifəsində məlumat verilir. Bildirilir ki, bu vaxtadək Yunanıstan və Albaniya TAP boru kəməri marşrutu boyunca 244 kilometr ərazi təmizlənib, 166 kilometr borular xətt üzrə düzülüb və boruların 129 kilometri qaynaqlanıb.

Qeyd edək ki, TAP-ın təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. “Trans-Adriatik” qaz boru kəmərinin tikintisi üzrə işlərin təxminən 32 faizi icra olunub.

Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazın Avropaya daşınmasını təmin edəcək TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Boru kəmərinin uzunluğu 871 kilometr (Yunanıstan – 547 kilometr, Albaniya – 211 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 36 düym). 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir. TAP üzrə tələb olunan kapital xərcləri 5 milyard dollardır. Boru kəmərinin 2020-ci ildə istismara verilməsi nəzərdə tutulur.

TAP-ın inşasında ümumilikdə 53 mindən çox borudan istifadə olunacaq. Boru kəmərinin Yunanıstan hissəsində 32 min, Albaniya hissəsində 12 min, Adriatik dənizi hissəsində 8 min 750, İtaliya hissəsində isə 660 borudan istifadə ediləcək. Boruların ümumi çəkisi 526 min tondur. Bunun da Albaniya hissəsində 126 min tonu, Yunanıstanda 323 min tonu, dəniz hissəsində 72 min tonu, İtaliyada isə 5 min tonu istifadə olunacaq.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), “Snam S.p.A.” (20 faiz), “Fluxys” (19 faiz), “Enagás” (16 faiz) və “Axpo” (5 faiz).

# 2017-Cİ İL DÜNYADA “BEYNƏLXALQ DAVAMLI TURİZM İLİ” KİMİ QEYD EDİLƏCƏK

***BMT Baş Məclisinin 70-ci sessiyası 2017-ci ili dünyada “Beynəlxalq davamlı turizm ili” elan edib.***

Dünya Turizm Təşkilatının rəsmi saytının verdiyi xəbərə görə, “Beynəlxalq davamlı turizm ili”nin rəsmi açılışı yanvarın 18-də İspaniyanın Madrid şəhərində olacaq. 2017-ci ildə beş mühüm sahədə, o cümlədən hərtərəfli və dayanıqlı iqtisadi inkişaf; sosial cəlbedicilik, məşğulluq və yoxsulluğun azaldılması; təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi; mədəni dəyərlər, müxtəliflik və irs; qarşılıqlı anlaşma, sülh və təhlükəsizlik məsələlərində turizmin rolunu təşviq edəcək.




Dünya Turizm Təşkilatının (DTT) baş katibi Taleb Rufai “Beynəlxalq davamlı turizm ili” ilə əlaqədar ictimaiyyətə müraciət edib.

DTT-nin saytı xəbər verir ki, müraciətdə BMT Baş Məclisinin 2017-ci ili dünyada “Beynəlxalq davamlı turizm ili” elan etməsinin təsadüfi olmadığı bildirilir. Qeyd edilir ki, turizm getdikcə daha çox və haqlı olaraq ən yaxşı dünyaya qədəm qoymağa kömək edən sektor kimi tanınır. 2017-ci il gələcək üçün turizmin töhfəsini təşviq etmək baxımından əlverişli imkandır. DTT, həmçinin turizmin davamlı inkişafda və 2030-cu ildən sonra rolunu müəyyənləşdirmək istəyir. Əlbəttə, turizm sektorunun formalaşmasına qədər mövcud olan bir çox problemlər qalmaqdadır. Taleb Rifai qeyd edir ki, o, bu nadir və faydalı sektorda bir məsələni hər zaman yadda saxlayacaq ki, bu da turizmin ümid sektoru olmasıdır. Turizm iqtisadiyyatın ən davamlı sektorlarından biri olmaqla yanaşı, həm də hər gün müxtəlif mədəniyyətlərdən, qitələrdən olan insanları bir araya gətirir. Səyahət vasitəsilə biz dözümlü, qayğıkeş olmaq kimi keyfiyyətlər qazanırıq ki, bu da qloballaşma dövründə çox vacibdir.

Müraciətin tam mətnini aşağıdakı linkdən oxumaq olar: http://www.tourism4development2017.org/news/the-year-ahead-harnessing-the-power-of-tourism-to-build-a-better-world/

Xatırladaq ki, “Beynəlxalq davamlı turizm ili”nin rəsmi açılışı yanvarın 18-də İspaniyanın Madrid şəhərində olacaq.

## SÜRƏT QATARLARI ÜÇÜN ƏN UZUN MARŞRUT İŞƏ SALINIB



**Çində sürət qatarları üçün ən uzun marşrut işə salınıb. Yeni marşrutun uzunluğu 2760 kilometrdir.**

RİA Sinxua informasiya agentliyinə istinadla xəbər verir ki, bu marşrut üzrə ilk qatar Kunmin şəhərindən (Yunnan vilayəti) Pekinə yola düşüb. Qatar yola 13 saat vaxt sərf edib. İkinci sinif biletin qiyməti 166 dollar təşkil edir.

Beləliklə, Çində sürətli dəmir yollarının uzunluğu 22 min kilometrə çatıb. Bu yollarda qatarlar saatda 200 kilometrdən 400 kilometrədək sürətlə hərəkət edə bilir.

Çin hazırda dünyada ən inkişaf etmiş sürətli dəmir yolları şəbəkəsinə malikdir. Hakimiyyət orqanları 13-cü beşilliyin sonunadək (2020-ci il) həmin yolların uzunluğunu 30 min kilometrədək, 2025-ci ilədək isə 38 min kilometrədək artırmağı planlaşdırırlar.



## ÜÇEKRANLI NOUTBUK TƏQDİM EDİLİB

**"Razer" şirkəti Las-Veqasda keçirilən "CES 2017" sərgisi çərçivəsində qeyri-adi üçekranlı oyun noutbukunun prototipini təqdim edib.**

"hitech.newsru.ru" saytı xəbər verir ki, "Blade Pro" modeli əsasında hazırlanmış "Project Valerie" adlı noutbuk işıqlandırma ilə təchiz edilmiş iki əlavə ekrana malikdir və yeni qurğunun qapağını açdıqdan sonra mərkəzi hissədən avtomatik olaraq açılır. 17.3 düymlük ekranların hər birinin təsvir ölçüsü 3840x2160 piksel ("4K Ultra HD"), ekranların ümumi təsvir ölçüsü 11520x2160 piksel təşkil edir. Noutbuk tərəfindən dəstəklənən "Nvidia Surround View" texnologiyası təsviri bütün ekranlar boyunca "dartmağa" imkan verir.

"Project Valerie" noutbukunun qalınlığı 3.8 santimetr, çəkisi isə 5.5 kiloqramdır. Noutbuk "Nvidia GeForce GTX 1080" videokartı ilə təchiz edilib. Şirkət "Project Valerie" noutbukunun başqa parametrləri haqda məlumat vermir.



## NƏHƏNG TUNA BALIĞI 640 MİN DOLLARA SATILIB

***Tokiodaki məşhur Çukuzi bazarında cari ilin ilk hərraclarında nəhəng mavi tuna balığı 74,2 milyon yenə (təqribən 640 min dollara) satılıb. Bu, əsrin əvvəllərindən indiyədək ikinci ən yüksək qiymətdir.***

Aomori prefekturasının sahillərində tutulan həmin balığın çəkisi 212 kiloqrama bərabərdir.

Bu günədək həmin hərraclarda ən bahalı balıq 2013-cü ildə satılıb və onun qiyməti 155 milyon yenə (həmin vaxtın məzənnəsi ilə 1,3 milyon dollar) bərabər olub.

Ötən il isə ilk hərracda satılan tuna balığının qiyməti 14 milyon yen (117 min dollar) təşkil etmişdi.

Yaponiyada tuna balığının ilk hərracı Yeni il bayramından sonra ölkənin işgüzar həyatı barədə fikir yaradır. İlin ilk hərracından asılı olaraq ölkə iqtisadiyyatında "əsəcək küləklər"in istiqaməti müəyyən edilir. Bunun hadisələrin sonrakı gedişi ilə təsdiq olunmasından asılı olmayaraq, ilk tuna balığının yüksək qiyməti Yaponiyada yaxşı əlamət kimi qəbul edilir.

***Vüqar Ağayev***

## OKEAN SULARININ TEMPERATURU İKİ DƏFƏYƏ YAXIN ARTIB



***Bir çox tədqiqatçılar son 15 ildə qlobal istiləşmənin azaldığını bildirirdi. Lakin yeni araşdırmalar qlobal istiləşmənin davam etdiyini sübut edib.***

bbc.com saytı xəbər verir ki, İqlim Dəyişikliyi üzrə Hökümətlərarası Ekspertlər Qrupu (IPCC) 2013-cü ildə qlobal səth temperaturunun son 15 ildə nisbətən artan xətt üzrə getdiyini açıqlayıb. Tədqiqatçılar 2000-ci ildən etibarən son 10 ildə okean sularında temperaturun 0.12 C dərəcə artdığını bəyan ediblər. Bu isə ehtimal edilən 0.7 C dərəcə artımdan iki dəfəyə yaxın çoxdur.

XXI əsrin ilk 15 ilində yaşanan isinməyə antropogen aktivliyin emissiyası olan CO2-nin səbəb olduğu qeyd edilir.

## MƏRCAN RİFLƏRİNİN RƏNGİ SOLDUQCA...



***Qlobal istiləşmə mərcan riflərinin rənginin solmasına və məhvinə gətirib çıxarır. Bu da planetimizin ən mühüm ekoloji sistemlərindən birinə çox ciddi təhlükə törədir.***

BMT Xəbərlər Mərkəzi xəbər verir ki, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) dəstəyi ilə hazırlanmış yeni tədqiqatdan belə məlum olur. Ekspertlərin fikrincə, indiki meyil saxlanılsa və beynəlxalq birlik parnik qazlarının emissiyalarının azaldılmasına nail ola bilməsə, artıq bu əsrin sonlarına doğru mərcan riflərinin 99 faizinin rəngi solacaq.

Mərcan riflərinin rənginin bərpasına təqribən beş il vaxt lazımdır. Amma mərcan riflərinin çoxunun rəngi solur, fotosintetik fəallığı itir və məhv olur. Mərcan riflərinin rənginin solması nəticəsində onların çoxlu sayda heyvan və bitkinin yaşayışına şərait yaradan ekoloji sistemi pozulur.

2016-cı ildə bu proses Avstraliya ərazisində yerləşən Böyük Baryer Rifində mərcanların 90 faizinə təsir göstərib. Bütövlükdə ötən il bütün dünyada mərcan riflərinin 20 faizi məhv olub.

İqlim üzrə Paris sazişi mərcan riflərinin müdafiəsini təmin edir, amma bu, yetərli deyildir. Selsi ilə 1,5 dərəcəyə qədər istiləşmə nəticəsində 2070-ci ilə qədər planetimizdəki mərcan riflərinin üçdəiki hissəsinin rəngi sola bilər. Proqnozlara görə, bu proses ilk növbədə Tayvanda və Terks və Kaykos arxipelaqı ətrafındakı mərcan liflərinə təsir göstərəcək. Sonrakı onilliklər ərzində Bəhreyn sahillərində, Çili və Fransa Polineziyasındakı riflərə də ziyan dəyəcək.

## DƏNİZ MƏHSULLARININ İXRACINDAN ƏLDƏ EDİLƏN GƏLİRLƏR ÇOXALIB

***Keçən il Norveçdə qızılbalıq satışı hesabına rekord məbləğdə pul qazanılıb. Bu, Krallığın iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olan neft satışından əldə edilən gəlirlərin azalmasını qismən kompensasiya etməyə imkan verib.***



Norveç KİV-ləri bu barədə Norveç Dəniz Məhsulları Şurasının məlumatlarına istinadla xəbər verirlər.

Bütövlükdə 2016-cı ildə balıq ovunun azalması, dəniz parazitləri ilə bağlı problemlər, Çin bazarının genişlənməsi nəticəsində qızılbalığa tələbatın artması qızılbalığın qiymətinin 40 faiz yüksəlməsinə səbəb olub.

Norveç iqtisadiyyatı üçün xoş yenilik olan bu xəbər Krallığın balıqçılıq təsərrüfatlarını da sevindirib. Belə ki, keçən il qızılbalıq satışından əldə edilmiş gəlir 2015-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 31 faiz artaraq 65,3 milyard Norveç kronuna (təqribən 7,8 milyard ABŞ dollarına) bərabər olub. Bütövlükdə Norveç dəniz məhsullarının ixracından əldə edilən gəlirlər 23 faiz artaraq rekord məbləğə - 91,6 milyard Norveç kronuna (təqribən 10,6 milyard ABŞ dollarına) çatıb.

Qeyd edək ki, Norveçdən ixrac edilən dəniz məhsullarının üçdə iki hissəsi qızılbalığın payına düşür. Norveç dəniz məhsullarının əsas istehlakçısı Fransadır.

Analitiklərin fikrincə, dünyada qızılbalığa tələbatın artması və Norveç ilə Çin arasında diplomatik münasibətlər normallaşandan sonra Çin bazarının açılması sayəsində qızılbalığın qiymətinin artması meyli 2017-ci ildə də davam edəcək.

2010-cu ildə çinli dissident Lyu Syaobonun Osloda Nobel sülh mükafatına layiq görülməsi bu iki ölkə arasında münasibətlərin korlanmasına səbəb olmuşdu.

***Rauf Əliyev***

## MİFİK "SU PƏRİLƏRİ"NİN PROTOTİPİ OLAN DƏNİZ İNƏKLƏRİ HƏM DƏ GƏMİLƏRLƏ TOQQUŞMALAR NƏTİCƏSİNDƏ MƏHV OLUR

***Dəniz inəkləri yox olmaq təhlükəsi qarşısındadır. Bu dəniz otyeyən məməliləri sahilyanı suların və dənizin çirklənməsindən, brakonyerlik nəticəsində və yosunların populyasiyasının azalmasından əziyyət çəkir. Onlar çox vaxt gəmilərlə toqquşmalar nəticəsində ölümcül zədə alır. Bu barədə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) bildirib.***



BMT-nin saytı xəbər verir ki, UNEP-in ekspertləri Solomon adaları, Şri-Lanka, İndoneziya, Malayziya, Mozambik və Madaqaskarın sahil sularında dəniz inəkləri və tropik yosunların mühafizəsi üzrə layihəni bir daha xatırladıblar.

Mİfik "su pəriləri"nin prototipi olan dəniz inəkləri sahil sularında təqribən 20 metr dərinlikdə yaşayır, yalnız yosunlarla qidalanır. Onlar gün ərzində 45 kiloqrama qədər yosun yeyə bilir.

"Su pəriləri"nin xilası üçün layihə vəhşi heyvanların köçəri növlərin qorunması üzrə Konvensiya çərçivəsində həyata keçirilir. Layihə çərçivəsində dəniz inəkləri və onların yaşayış mühitinin mühafizəsinə yönəlmiş tədbirlər görülür.

UNEP-in ekspertləri qeyd edirlər ki, mərcanlar kimi, tropik yosunlar ekosistemi də vacibdir, çünki onlar sahilboyu balıqçılığın inkişafı üçün həlledicidir.

Dəniz inəyinin uzunluğu 3 metrə, çəkisi isə 500 kiloqrama çata bilər. Əgər təhlükə yoxdursa, onda onlar 70 ilə qədər yaşaya bilər. Bu məməlilər bir neçə gün ərzində yüz kilometrlərlə üzməyə qadirdir.

Son illər dəniz inəklərinin populyasiyası kəskin azalıb. Bu gün onların sayı təxminən 120 mindir. Ekspertlərin fikrincə, dəniz inəklərinin yaşadığı böyük arealın müqabilində bu, çox kiçik rəqəmdir.

Dəniz inəklərinin müdafiəsi üzrə 2015-ci ildə start verilən layihə 2018-ci ilin dekabr ayına kimi davam edəcək. Layihənin reallaşması üçün ümumilikdə altı milyon ABŞ dolları tələb olunur.

## YARIZARAFAT, YARIGERÇƏK

**Aslanlar ət yox, ot yesə, yəqin hətta dovşanlar da onların başında oturarlar.**

**Məndən səbirli adam yoxdur. Amma indiyədək mənim səbirlə nə isə udduğumu eşitmisiniz?**

**Deyəsən bəziləri üçün mənim haqqımdan dadlı heç nə yoxdur. Yoxsa tanıdıqlarım daha çox haqqımı yeməyə çalışmazdılar.**

**Ən çətin vəziyyətlərdə də başımı itirməməyə çalışıram. Təkcə ona görə yox ki, itki çox pis şeydir.**

**Biz çox vaxt əsl günahkarı axtaranda elə bil tapmamaq üçün gözlərimizi yumuruq.**

**Əsl sevginin olub-olmadığını saxta adamlar hardan bilə bilər?**

**Məndən olsaydı, yalanlarına görə bütün yalançıların dilini kəsərdim. Humanist olmadığımı düşünənlərin yalançıların yıxdığı evlərdən xəbəri var?**

**Arxanızca danışanları özünüzdən qabağa buraxmağa qorxmayın. Bir şərtlə ki, sonra onları dilləri söz tutmayana qədər qovasınız.**

**Başqalarının ədasını görəndən sonra çətinliyə düşəndə özüm-özümə kömək etməyə çalışıram. Bir şey alınmayanda isə, Allahım kömək edir.**

**Yaxşı ki, boynum yoğun deyil. Çox adam oturmağa yer axtarır.**

**Onu dəqiq bilirəm ki, ölüm ayağında məndən nə qədər pulum olduğunu soruşmayacaqlar.**

**Bir iş görəndə çalışırıq ki, gördüyümüz işdən biz razı qalaq. Bəs Allah?**

**Hər şey vaxtında gözəldir. Hətta ölüm də!**

**Nə sirdirsə, irəli çəkdiklərimiz bizi daha çox dala çəkir. O nə sirdir görəsən?**

**Pul və vəzifə davasında ən çox Vətən uduzur.**

**Vətəni, vəzifə və sərvətdən çox yox, bir qədər artıq sevsək, nə Vətənin bir dərdi olar, nə bizim.**

**Vaxtın qiymətini bilməyən vaxtsız hörmətdən düşər.**

**Bir yalan bir dəfə sizi vəziyyətdən çıxara bilər. İkinci yalan vəziyyətinizi bir qədər yüngülləşdirə bilər. Üçüncü yalandan sonra ya həqiqətdən yapışmalısınız, ya da yalanlarınıza görə boğazınızdan möhkəm yapışacaqlar.**

**Sizə qırıq iplər lazımdır? Yox?! Onda ilk növbədə ipiqırıq adamlardan uzaq olun.**

**İndi badalağı nadir hallarda ayaqla vururlar.**

**Nə qədər ki, tamah insanın ağlını başından ala bilir, arxadan zərbəni ən çox gözləmədiklərinizdən gözləyin.**

**Bağışlamağı bacarıram, mənə edilən pisliyi unutmaq isə yaddaşıma bağlıdır.**

**Sizə lazım olanı çox-çox uzaqlarda axtarmamışdan əvvəl yaxına yaxşı-yaxşı göz gəzdirin. Çünki bəzən gözümüzün önündə olanlara nədənsə diqqət yetirmirik.**

**Bir Allahı, bir də özünüzü heç vaxt aldatmağa cəhd etməyin. Hər iki halda daha çox sizə ziyan dəyəcək.**

**Ağıl yeganə şeydir ki, çoxluğunun ziyanı yoxdur və həmişə faydası var.**

**Pulu olanı da axtarırlar, pulu olmayanı da. Sadəcə, pulu olmayanı daha çox problemlər axtarır.**

**Çörək "dostlar"ı çörəyi də hörmətdən salırlar, dostluğu da.**

**Adamların yaxşısını-pisindən ayıra bilən daha heç nəyi ayıra bilməsə də, problemi az olar.**

**Ömrün şirin olduğunu yaşaya-yaşaya daha çox hiss edirsən və hiss edə-edə daha çox yaşamaq istəyirsən.**

**Lazımsız heç nəyi özünüzə yaxın buraxmayın ki, vaxtınız lazımsız şeylərə getməsin.**

**Ciddi yanaşmadığınız şeylər sizə ciddi problemlər yarada bilər.**

**Pul hamıya lazımdır. Diqqətinizi puldan vacib şeylərə yönəldin.**

**Aldığımız hər zərbəyə görə əlimiz işdən soyusa, onda gərək iş görməyək.**

**Özümü heç kimlə müqayisə etmirəm. Bu, mənə hər şeyə özüm kimi yanaşmağa imkan verib.**

**Təkcə hər eşitdiyinizə yox, həm də hər gördüyünüzə həmişə inanmayın.**

**Qaçan da, qovan da Allaha yalvaran yerdə bəzən Allah da çərəsiz qalır.**

**Ən böyük səhvə, "yox" demək lazım ikən "bəli" deyəndə yol veririk.**

**Dost kimi görünən, lakin dost olmayan düşmən kimi görünəndən daha qorxuludur.**

**Bəzi məsələlərdə susmaq yalan danışmaqdan daha betərdir.**

**Qadınların kişilərlə bağlı təxminləri nadir hallarda elə təxmin olaraq qalır.**

**Hətta həyatdan heç nə istəməyəndən də həyat çox şey istəyir.**

**Həyatından razı olan hanı? Az şeyi olan çox şey, çox şeyi olan hər şey, hər şeyi olan hər şeydən çox istəyir.**

**Zəif xarakterli insanların bütün həyatı gileylənməyə gedir.**

**Hətta xırda şeylər haqqında fikirləşəndə də cılız fikirləşməyin.**

**Daha da irəli getmək üçün əvvəlcə nəyəsə çatmaq lazımdır.**

**Nə qədər bədbəxt qadın varsa, o qədər də günahkar kişi var.**

**Qadınlar həqiqətən gülə bənzəyir. Onlar da gül kimi, ən xırda ehtiyatsızlıqdan sına, qırıla, sola bilərlər.**

**Bütün canlılar arasında təkcə insanlar yalan danışa bilir. Belə çıxır ki, şüur insana yalan danışmaq üçün verilib?**

**Laqeyd olmayan adam üçün hər yan gözəlliklə doludur.**

***Rasif TAHİROV***




# 2016-CI İLİN KOMANDASI MÜƏYYƏNLƏŞİB

***UEFA oxucularının səsverməsi əsasında 2016-cı ilin komandası və rəmzi "11-lik" məlum olub.***

2016-cı ilin komandası İspaniyanın "Real Madrid" klubu seçilib. Belə ki, "kral" klubu 24 faiz səs toplayıb. Bundan başqa "Barselona" (16%), "Mançester Yunayted" (6%), "Yuventus" (5%), "Arsenal" (4%) komandaları ilk beşlikdə qərarlaşıb.

İlin simvolik komandasında da ən çox İspaniyanın "Real Madrid" komandasının üzvləri təmsil olunub. Belə ki, azarkeşlərin ən çox dəstəklədiyi 4-3-3 taktikasında "kral" klubundan dörd, "Barselona"dan üç, "Yuventus"dan iki, "Atletiko Madrid" və "Bavariya"dan bir futbolçu yer alıb. Fanatların səsverməsinə əsasən, "11-lik"də qapıçı Canluici Buffon ("Yuventus"), müdafiəçilər Serxio Ramos ("Real Madrid"), Cerard Pike ("Barselona"), Jerom Boatenq ("Bavariya"), Leonardo Bonuççi ("Yuventus"), yarımmüdafiəçilər Andres İnyesta ("Barselona"), Toni Kroos ("Real Madrid"), Luka Modriç ("Real Madrid"), hücumçular Lionel Messi ("Barselona"), Kriştiano Ronaldo ("Real Madrid") və Antuan Qrizman ("Atletiko Madrid") yer alıblar.

Futbolçuların seçimi zamanı isə qapıçılardan C. Buffon (50%), müdafiəçilərdən S.Ramos (75%), yarımmüdafiəçilərdən L.Modriç (59%), hücumçulardan K. Ronaldo (69%) istifadəçilərin ən çox etimadını qazanıb.

| | YANVAR | FEVRAL | MART | APREL | MAY | İYUN | |
|---|---|---|---|---|---|---|---|
| Be | 2 9 16 23 30 | 6 13 20 27 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | Be |
| Ça | 3 10 17 24 31 | 7 14 21 28 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | Ça |
| Ç | 4 11 18 25 | 1 8 15 22 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | Ç |
| Ca | 5 12 19 26 | 2 9 16 23 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | Ca |
| C | 6 13 20 27 | 3 10 17 24 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | C |
| Ş | 7 14 21 28 | 4 11 18 25 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | Ş |
| B | 1 8 15 22 29 | 5 12 19 26 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | B |

**2017**

| | İYUL | AVQUST | SENTYABR | OKTYABR | NOYABR | DEKABR | |
|---|---|---|---|---|---|---|---|
| Be | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | Be |
| Ça | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | Ça |
| Ç | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | Ç |
| Ca | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | Ca |
| C | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | C |
| Ş | 1 8 15 22 19 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | Ş |
| B | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | B |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1, 2 yanvar | Yeni il bayramı | 9 may | Faşizm üzərində Qələbə Günü | 26 - 27 iyun | Ramazan bayramı |
| 20 yanvar | Ümumxalq Hüzn Günü | 28 may | Respublika Günü | 1 - 2 sentyabr | Qurban bayramı |
| 8 mart | Beynəlxalq Qadınlar Günü | 15 iyun | Milli Qurtuluş Günü | 9 noyabr | Dövlət Bayrağı Günü |
| 20-24 mart | Novruz bayramı | 26 iyun | Silahlı Qüvvələr Günü | 31 dekabr | Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü |

# ÜÇ QADIN GÜLƏŞÇİMİZ BEYNƏLXALQ REYTİNQ CƏDVƏLİNDƏ İLK ONLUQDA QƏRARLAŞIB




**Dünya Güləş Birliyi ötən ilin yekunlarına əsasən, 2017-ci ilin ilk reytinq siyahısını açıqlayıb.**

Qadın pəhləvanların reytinq sıralamasında 7 güləşçimizin adı var. Onlardan 3-ü ilk onluğa daxildir.

Ən yüksək göstərici Olimpiya Oyunlarında 48 kiloqram çəkidə gümüş medal qazanan Mariya Stadnikə məxsusdur. Güləşçimiz reytinqdə də ikinci sırada qərarlaşıb. Olimpiadanın bürünc medalçısı Nataliya Sinişin (53 kq) reytinqdə 4-cüdür. Olimpiadanı 5-ci sırada tamamlayan Yuliya Ratkeviç (58 kq) isə reytinqdə 6-cı pillədədir.

# ŞAHMATÇIMIZ BAZELDƏ BEYNƏLXALQ TURNİRİN QALİBİ OLUB



**Azərbaycan şahmatçısı Eltac Səfərli Bazel şəhərində keçirilən beynəlxalq turnirin qalibi olub.**

E.Səfərli 9 turun nəticələrinə görə 7 xal toplayaraq birinci yeri tutub. Son turda o, həmyerlisi Nicat Abbasovla heç-heçə oynayıb. Şahmatçımız çinli Cin Şi Bay və fransalı Kristian Bauerlə eyni xal toplasa da əlavə göstəricilərə görə qalib elan olunub.

Yanvarın 2-8-də keçirilən Beynəlxalq Şahmat Festivalına 107 şahmatçı qatılıb. Azərbaycanı, həmçinin Nicat Abbasov və Vüqar Əsədli təmsil ediblər.

# YÜZ CAVANA DƏYƏN QOCA



**Yüz beş yaşlı fransız Rober Marşan Fransanın milli velodromunda bir saata 22,5 kilometr məsafə qət edərək öz yaş kateqoriyasında rekorda imza atıb.**

BBC.com saytı xəbər verir ki, hazırda Marşan 105 yaşdan yuxarı velosipedçilər arasında çempiondur. O, 2012-ci ildən bəri "100 yaşdan 105 yaşadək" kateqoriyasında çempion titulunu əlində saxlayır.

"Mən bura çempion olmaq üçün deyil, 105 yaşlı insanın velosiped sürə biləcəyini sübut etmək üçün gəlmişəm", - deyə Marşan yürüşdən sonra qeyd edib.

Velosipedçinin sözlərinə görə o, distansiyanı daha yaxşı nəticə ilə - bir saata 26,9 kilometr qət etməklə başa vura bilərdi.

Bu yaşda əla fiziki göstəriciyə necə nail olduğu barədə suala cavabında Marşan düzgün pəhrizin vacibliyini vurğulayıb. O, çoxlu meyvə və tərəvəz yeməyi, ətdən az istifadə etməyi və çox qəhvə içməməyi məsləhət görüb. Bundan əlavə, fransız günün bir saatını velosiped trenajorunda keçirir.

Rober Marşan 1911-ci ildə anadan olub. İkinci Dünya müharibəsi zamanı nasistlərə əsir düşüb. Müharibədən sonra Venesuelada şəkər qamışı plantasiyasında və Kanadada odunçu işləyib. O, idmançı kimi beynəlxalq gimnastika yarışlarında ölkəsini təmsil edib, həmçinin boksla məşğul olub.







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 110